YENİ AZƏRBAYCAN
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir
Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.
7 mart 2025-ci il, cümə
№ 042 (6870)
Qiymәti 60 qəpik



Milli azadlıqdan şirin nemət yoxdur!

# Ankaradan dünyaya mesaj...

## Türkiyə və Azərbaycan sülhün, sabitliyin, rifahın tərəfindədir!



Bax səh. 2

# Siyasi partiyalar yenidən bir arada

## Sağlam siyasi dialoq ənənələri daha da dərinləşdirilir

Bax səh. 3







## Əlaqələr genişlənir...

Azərbaycan beynəlxalq aləmdə etibarlı tərəfdaş kimi tanınır. Bunu dünya ölkələrinin, nüfuzlu beynəlxalq təşkilatların Azərbaycanla əməkdaşlıqda maraqlı olmaları da təsdiqləyir. Prezident İlham Əliyevin xarici ölkələrə, həmçinin dünya ölkələrinin liderlərinin isə Azərbaycana səfərləri dövlətimizin beynəlxalq əlaqələrinin genişlənməsinə töhfəsini verməkdədir. Son illər Azərbaycanın Avropa, Türk dünyası ölkələri ilə olduğu kimi, ərəb dövlətləri ilə də münasibətləri yeni inkişaf mərhələsinə qədəm qoyub. Bu mənada, Birləşmiş Ərəb Əmirlikləri ilə münasibətlər xüsusi əhəmiyyətə malikdir.

Yeri gəlmişkən, martın 4-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovla Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) xarici işlər naziri Abdullah bin Zayed Əl Nəhyan arasında telefon danışığı olub. Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən verilən məlumata görə, telefon danışığı zamanı ölkələrimiz arasında strateji tərəfdaşlıq çərçivəsində görülən işlər, həm ikitərəfli, həm də çoxtərəfli çərçivədə əməkdaşlıq perspektivləri, habelə regional və beynəlxalq təhlükəsizlik məsələləri müzakirə olunub.

Nazirlər 2025-ci ildə siyasi, iqtisadi, ticarət, energetika, turizm və digər istiqamətlərdə əməkdaşlıq əlaqələrinin daha da inkişaf edəcəyinə əmin olduqlarını vurğulayıblar. Telefon danışığı zamanı, həmçinin digər beynəlxalq platformalarda əməkdaşlıq istiqamətləri, habelə Yaxın Şərqdə vəziyyət...

Bax səh. 4

## Kosmik ailənin yeni üzvü

Azərbaycanın Kosmik Agentliyi (“Azərkosmos”) “Azersky 2” peykini ölkəmizdə hazırlanmış ilk böyük peyk layihəsi kimi qlobal kosmik sənaye cəmiyyətinə təqdim etmək niyyətindədir. Agentliyin rəhbər vəzifəsini icra edən Dunay Bədirxanov bildirib ki, indiyə qədər kosmosa göndərilmiş peyklərdə yerli mütəxəssislərimiz çox az olduğu üçün bu prosesə xaricdən mühəndislər cəlb olunurdu. Hazırda peyk idarəetmə üzrə yerli mütəxəssislərin hazırlanması “Azərkosmos”un imkanlarını gücləndirib. Bu potensial isə “Azersky 2” peykinin birbaşa Azərbaycanda layihələndirilməsi, yığılması və hazırlanmasını təmin edib. Peyk proqramının idarə olunması da milli kadrlar tərəfindən həyata keçiriləcək.

Qeyd edək ki, Azərbaycanın növbəti optik müşahidə peykinin 2026-cı ildə orbitə buraxılması nəzərdə tutulur. “Israel Aerospace Industries” şirkəti ilə birgə hazırlanan yeni peyk ölkəmizdə yer səthinin müşahidəsi sektorunda davamlılığı təmin edəcək, hazırda azad edilmiş ərazilərdə aparılan tədqiqatların sürətlənməsinə töhfə verəcək.

Azərbaycan qlobal fəzada “Azerspace-1”, “Azerspace-2” və “Azersky” peykləri ilə təmsil olunmaqdadır. “Azərkosmos” son illərdə dünya kosmik ailəsinin etibarlı üzvü kimi dünyanın ən qabaqcıl şirkətləri ilə əməkdaşlığı artıraraq yeni nəsil texnologiyaların tətbiqinə nail olmaqdadır...

Bax səh. 4

## Qəzzada vəziyyət gərginləşir...

İsrail ilə HƏMAS arasında razılaşdırılmış altı mərhələlik atəşkəs prosesi yeni gərginliklə əvəz olunmaqdadır. Xatırladaq ki, yanvarın 19-dan qüvvəyə minən razılaşmanın ilkin mərhələləri müəyyən mənada icra olundu. Belə ki, atəşkəsin ertəsi günü İsrail HƏMAS hərəkatı ilə Qəzza zolağında saxlanılan girovların azad edilməsi və atəşkəsin tətbiqi ilə bağlı razılaşma çərçivəsində 90 fələstinli məhbus azad edildi, HƏMAS isə üç israilli girovu geri qaytardı. Amma az keçmədi ki, proses yenidən dalana dirəndi. Girovların azad edilməsi məsələsindəki anlaşılmazlıq yenidən silahların dillənməsinə yol açıb.

Donald Trampın Qəzza ilə bağlı açıqlamaları isə vəziyyəti daha da gərginləşdirib - xüsusilə, Qəzza sakinlərinin ərazini tərk edərək başqa ölkələrin ərazilərinə köçürülməsi ilə bağlı fikirləri birmənalı qarşılanmayıb və tənzimləməyə mənfi təsir göstərib. Tramp isə iddialarından geri durmaq fikrində deyil. Bu dəfə o, HƏMAS-a ultimatum verərək, bütün girovların dərhal azad edilməsini tələb edib və əks halda ciddi nəticələrlə üzləşəcəklərini bildirib. “Truth Social” hesabındakı paylaşımında ABŞ Prezidenti deyib: “Şalom, HƏMAS” həm salam, həm də vidalaşma deməkdir - seçim sizindir. Girovların hamısını dərhal sərbəst buraxın, hələ gec deyil. Həmçinin öldürdüyünüz insanların cəsədlərini geri qaytarın, yoxsa sizin...

Bax səh. 5

## Ermənistanın xəyal qırıqlığı...

Revanşizm mövqeyindən çıxış edən məğlub Ermənistanın postmüharibə dövründə özünə güclü müttəfiqlər tapmaq üçün sərgilədiyi çabalar bir nəticə vermir. Fransanın, şəxsən Makronun Ermənistana “əbədi sevgisi” hələ öz qüvvəsində qalsa da, Nikol Paşinyan kollektiv Qərbin drayver qüvvəsi olan ABŞ-dan, daha dəqiq desək, Tramp administrasiyasından istədiyini ala bilmir. Ağ Evdə məlum administrasiya dəyişikliyinin nəticəsi olaraq Bayden dönəminin başa çatması ilə ABŞ-ın xarici siyasətində ciddi korrektələr müşahidə edilir ki, bundan ciddi şəkildə təsirlənən ölkələr sırasında Ermənistan da var.

Məsələnin mahiyyəti ondan ibarətdir ki, keçmiş administrasiya dönəmində Ermənistan Ağ Evin bir növ əziz-xələfinə çevrilmişdi. Ağ Evin keçmiş siyasi rəhbərliyinin xüsusi simpatiyası nəzərə alınmaqla ABŞ-ın bütün idarəetmə strukturlarında Ermənistanın istəklərinə “yaşıl işıq” yandırılırdı. Cənubi Qafqazdakı reallıqlar fonunda rəsmi İrəvana açıq-aşkar selektiv yanaşma sərgilənirdi. Erməni lobbisinə bağlı olan parlamentarilərin canfəşanlığı sayəsində Senatda Ermənistanın əsassız müdafiəsini hədəfləyən bir neçə qərəzli qətnamə qəbul olundu. C.Bayden administrasiyası Ermənistanın müxtəlif istiqamətlərdə dəstəklənməsi məqsədilə böyük məmnuniyyətlə maliyyə vəsaitləri ayırırdı...

Bax səh. 6

# Makronun son akkordları...



Bax səh. 6

# 46 il sonra...

## Karterin sərəncamı qüvvədən düşəcəkmi?



Bax səh. 7

# Ankaradan dünyaya mesaj...

## Türkiyə və Azərbaycan sülhün, sabitliyin, rifahın tərəfindədir!

**Azərbaycan və Türkiyə arasındakı münasibətlər çox doğru olaraq dostluğun, qardaşlığın zirvə nöqtəsi sayılır. Bu münasibətlər iki ölkənin ortaq tarixindən, mədəniyyətindən və dilindən qaynaqlanaraq beynəlxalq səviyyədə güclü strateji əməkdaşlığa çevrilib. Bu gün dünyada elə bir güc yoxdur ki, ölkələrimizin qardaşlıq əlaqələrinə xələl gətirə bilsin. Əksinə, zaman ötdükcə dövlətlərin qətiyyətli siyasi iradəsi, cəmiyyətlərin istəyi ilə bu birlik daha sarsılmaz olur.**

**Prezident İlham Əliyevin qardaş ölkəyə növbəti uğurlu işgüzar səfəri və səfər çərçivəsində baş tutan tədbirlərlə Azərbaycan-Türkiyə dostluğu tarixinə daha bir səhifə yazılıb. Səfər Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın dəvəti ilə baş tutub. Prezidentlər martın 5-də Ankarada İğdır-Naxçıvan qaz kəmərinin videobağlantı formatında açılış mərasimindəki çıxışlarında qarşılıqlı əlaqələrin hazırkı səviyyəsindən məmnunluqlarını bildirməklə yanaşı, ikitərəfli və çoxtərəfli münasibətlərin perspektivləri ilə bağlı fikirlərini bölüşüb, regional və qlobal miqyaslı geosiyasi reallıqlarla üst-üstə düşən baxışlarını diqqətə çatdırıblar. "Bugünkü mərasim bir daha Türkiyə-Azərbaycan birliyini, dostluğunu, qardaşlığını göstərir, onun əyani təzahürüdür", - deyə Prezident İlham Əliyev çıxışında vurğulayıb.**





### Türkiyənin davamlı dəstəyi, Azərbaycanın vəfa borcuna sadiq qalması

Azərbaycan ilə Türkiyə arasındakı qardaşlıq münasibətləri XX əsrin əvvəllərindən etibarən inkişaf etməyə başlayıb. İki ölkənin ortaq tarixi, mədəniyyət və dil bağları bu əlaqələri daha da möhkəmləndirib. 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti (AXC) qurulduqda Osmanlı İmperiyasının varisi olan Türkiyə bu müstəqil dövləti dəstəkləyərək diplomatik əlaqələrini genişləndirmişdi. Lakin Sovet İttifaqı dövründə iki ölkə arasında əlaqələr əsasən qeyri-rəsmi şəkildə mövcud olub. 1991-ci ildə Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra isə münasibətlər daha da yaxınlaşmağa başlayıb. Türkiyə bu müstəqilliyi tanıyan ilk ölkə olub. Həmin dövrdən etibarən ölkələrimiz arasında siyasi və iqtisadi sahədə dərin əməkdaşlıq qurulub. 1990-cı illərin sonlarından başlayaraq, xüsusən də müstəqilliyin ilk illərində Türkiyə Azərbaycana siyasi və diplomatik dəstək göstərib. Türkiyə ölkəmizin suverenliyinə və ərazi bütövlüyünə olan dəstəyini, xüsusilə keçmiş Qarabağ münaqişəsi zamanı açıq şəkildə nümayiş etdirib. Qardaş ölkə münaqişənin ilk illərindəcə Azərbaycana qarşı işğalçılıq siyasəti apardığına görə Ermənistanla sərhədlərini bağlayıb. Biz Türkiyənin qətiyyətli dəstəyini 44 günlük Vətən müharibəsi zamanı bir daha gördük. Müharibənin ilk günlərindən başda qardaş ölkənin Prezidenti Rəcəb Tayyib Ərdoğan olmaqla əksər yüksəksəviyyəli rəsmiləri Türkiyənin Azərbaycanın yanında olduğunu bildirən bəyanatlarla çıxış etdilər. Türkiyənin bu mənəvi-siyasi dəstəyi Azərbaycana güc verdi. Nəticədə, Silahlı Qüvvələrimiz 44 günlük müharibədə şanlı Qələbə qazanaraq respublikamızın ərazi bütövlüyünü təmin etdi.

Öz növbəsində Azərbaycan da Türkiyəyə münasibətdə həmişə vəfa borcuna sadiq qalır. Respublikamız ermənilərin uydurduqları qondarma soyqırımı məsələsinə birmənalı şəkildə mənfi münasibət bəsləyir. Qardaş ölkədə 2016-cı il iyulun 15-dən 16-na keçən gecə baş verən dövlət çevirilişi cəhdi zamanı Azərbaycanın dövlət başçısı və bütün xalqımız Türkiyə hakimiyyəti, Prezident Rəcəb Tayyib Ərdoğanla həmrəylik nümayiş etdirdi. Ölkəmizdə Türkiyənin milli və dövlət maraqlarına qarşı yönələn hadisələr qətiyyətlə pislənildi. Azərbaycan da ən çətin vaxtlarında Türkiyəni tək buraxmır. 2023-cü ilin fevralında qardaş ölkə dəhşətli zəlzələ ilə silkələndi. Azərbaycan bu çətin günlərdə Türkiyəyə ilk yardım əli uzadan ölkə olub. Çıxışında Azərbaycanın qardaşlıq dəstəyini minnətdarlıqla xatırladan Rəcəb Tayyib Ərdoğan "6 fevral zəlzələləri başda olmaqla, ən çətin günlərimizdə necə ki, Can Azərbaycanı yanımızda gördüksə, biz də qardaşlarımızın ehtiyac duyduğu hər an yanlarında olacağıq", - deyə vurğulayıb.



### İndiki geosiyasi reallıqlar şəraitində Azərbaycan-Türkiyə müttəfiqliyinin əhəmiyyəti

Bu gün biz tam əminliklə deyə bilərik ki, sarsılmaz tarixi bağlara əsaslanan Azərbaycan-Türkiyə münasibətləri keyfiyyətcə yeni mərhələyə yüksəlib. Müasir dünyada, indiki geosiyasi reallıqlar şəraitində iki qardaş ölkənin müttəfiqliyi xüsusi əhəmiyyət daşıyır. Hazırda dünyada beynəlxalq hüququn işləmədiyi müşahidə edilir, güc amili önə keçib, oxşar məzmunlu problemlərə selektiv yanaşmalar sərgilənir. Belə bir vəziyyətdə milli dövlətlər üçün güclü müttəfiqlərinin olmasının önəmi aydın gəkildə görünür. Məlumdur ki, ayrı-ayrı Azərbaycanafob və Türkofob qüvvələr fəallaşıblar. Onlar müstəqillik və suverenlik prinsiplərinə əsaslanan siyasət həyata keçirən Azərbaycana və Türkiyəyə hansısa bir formada ziyan yetirmək, mövqelərimizi zəiflətmək üçün müxtəlif fəaliyyətlər həyata keçirirlər. Belə bir şəraitdə xalqlarımızın xoşbəxtliyi ondadır ki, dövlətlərimiz müttəfiqlik mövqeyindən çıxış edirlər. Azərbaycanla Türkiyə arasında 2021-ci il iyunun 15-də imzalanan Şuşa Bəyannaməsi ilə iki qardaş ölkənin müttəfiqliyi rəsmən təsdiqlənib. Sənəddə həmçinin hərbi-müdafiə sahəsində əməkdaşlıqla bağlı məsələlərin geniş spektiri öz əksini tapıb.

Bu gün Türkiyənin Silahlı Qüvvələri dünya üzrə ən yaxşılardan biridir. Türkiyə Ordusunun arsenalında müasir, yüksək texniki parametrlərə malik silahlar cəmləşib və qürurverici haldır ki, onların böyük əksəriyyəti daxili istehsaldır. Qardaş ölkənin güclü Silahlı Qüvvələri Azərbaycanın və bütün Türk dünyasının güvənc yeridir. Eyni zamanda, Azərbaycan da müasir Ordu quruculuğunda böyük uğurlar qazanıb. Bu Ordu 44 günlük müharibədə XXI əsrin müharibəsini aparmaqla ölkənin ərazi bütövlüyünü təmin etməyə nail oldu. Son illərdə Azərbaycan Ordusunun Türkiyə modeli əsasında inkişaf etdirlməsi, komando birliklərinin yaradılması Silahlı Qüvvələrimizin keyfiyyətcə yeni bir səviyyəyə yüksəlməsini təmin edib.

Postmüharibə dövründə sülhyaratma prosesində Azərbaycanın və Türkiyənin uzlaşdırılmış fəaliyyətlər həyata keçirmələri xüsusi önəm daşıyır. Ermənistanın otuz il davam edən işğaçılıq siyasəti regional əməkdaşlığa və təhlükəsizliyə ağır zərbələr vurub. Kapitulyasiyaya uğrayan Ermənistan postmüharibə mərhələsində də müxtəlif manipulyasiyalara əl atmaqla sülhyaratma prosesinə əngəllər yaradır. Son vaxtlarda Ermənistan tərəfi, necə deyərlər, çoxbilmişlik edərək Türkiyə ilə sərhədlərin açılmasına nail olmağa çalışır, o cümlədən regionda kommunikasiyaların blokdan çıxarılması ilə bağlı müxtəlif iddialar səsləndirir. Yenə də Ermənistanın sülhə mane olan pozuculuq mövqeyi ortadadır. Azərbaycanla sülh sazişi imzalanmadan Ermənistanla Türkiyə arasında sərhədlərin açılması bütövlükdə sülhyaratma prosesinə ciddi zərbə olardı, həm qardaş ölkənin, həm də Azərbaycanın mövqeyini zəiflədərdi. Buna görə də Azərbaycan və Türkiyə o mövqedən çıxış edirlər ki, Ermənistan sülhyaratma prosesinə sadiqliyini təsdiqləmək üçün manipulyasiyalara son qoymalı, öhdəliklərini yerinə yetirməlidir. Əgər Ermənistan sürətlə silahlanma yolu tutubsa, onun konstitusiyasında qonşu ölkələrə qarşı ərazi iddialarını özündə ehtiva edən müddəlar varsa və N.Paşinyan komandası bütün bunlara son qoymağa tələsmirsə, onda hansı sülhdən danışmaq mümkündür? Tədbirdə qeyd olunduğu kimi, Türkiyə və Azərbaycan sülhün, sabitliyin, rifahın tərəfindədirlər. Ermənistan da ittihamlardan əl çəkib buna uyğun davranmalı və sülh naminə praktiki müstəvidə real addımlar atmalıdır.

Türkiyənin dövlət başçısının dəvəti əsasında Azərbaycan Prezidentinin qardaş ölkəyə səfərinin Yaxın Şərqdə və Şərqi Avropada məlum proseslərin izlənildiyi bir vaxtda reallaşması da diqqətdən kənarda qala bilməz. Regionumuz, bütövlükdə dünya həssas dönəmdən keçir. İzlənilən proseslərdə Türkiyənin mövqeyinin gücləndiyi aydın şəkildə görünür. Qardaş ölkə həm artan gücü, həm də ardıcıl siyasətində xoş məramdan, beynəlxalq prinsiplərdən, ədalət mövqeyindən çıxış etməklə və əlbəttə ki, lider qətiyyəti ilə diqqət mərkəzinə gəlir. Çox doğru olaraq belə bir qənaət formalaşır ki, bu gün Türkiyə bir barışıq rəmzinə çevrilib. Suriya, Ukrayna, Qəzza bölgəsi qardaş ölkəyə və onun liderinə böyük ümid bəsləyirlər. Eyni zamanda, ABŞ-ın yeni administrasiyasının, Moskvanın da Türkiyəyə və R.T.Ərdoğana rəğbəti inkar oluna bilməz. Bu kimi reallıqlar fonunda Türkiyənin dövlət başçısının inandığı Liderlə - Azərbaycan Prezidenti ilə müzakirələr aparmaq üçün Onu ölkəsinə dəvət etməsinin məntiqi başadüşüləndir. İlham Əliyev novator siyasətçi olduğunu, regional və qlobal məsələlərə strateji yanaşmalar sərgilədiyini dəfələrlə nümayiş etdirib. İndiki reallıqlar şəraitində iki qardaş ölkənin mövqelərini uzlaşdırmaları və birgə fəaliyyət istiqamətlərini müəyyənləşdirmələri çox vacibdir.

### Bir əsrdən çox davam edən ədalətsizlik

Bəhs olunan tədbirdəki çıxışında Prezident İlham Əliyevin Naxçıvanla bağlı səsləndirdiyi fikirlər həm tarixilik, həm də ədalət nöqteyi-nəzərindən çox vacibdir. Qədim Azərbaycan torpağı olan Naxçıvan artıq bir əsrdən çoxdur ki, respublikamızın əsas hissəsindən ayrılıb. Bu, zamanında imperialist güc mərkəzlərinin məkrli planları əsasında baş verib. Məlumdur ki, həmin məkrli panlara uyğun olaraq tarixi Azərbaycan torpaqlarında Ermənistan adlanan dövlət qurulub. Ərazilərimizin qəsb edilməsi mərhələ-mərhələ həyata keçirilib. Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən İrəvanın ermənilərə verilməsindən sonra onlar sakitləşmədilər. Belə ki, AXC 1920-ci ildə süqut edəndən beş ay sonra ermənilərin təkidi ilə sovet hakimiyyəti Qərbi Zəngəzuru Azərbaycandan ayırıb Ermənistana birləşdirdi və beləliklə, respublikamızın əsas hissəsi ilə onun ayrılmaz hissəsi olan Naxçıvanla quru bağlantısı pozulub. "Bir əsrdən çox davam edən bu ədalətsizlik Naxçıvanda yaşayan bizim soydaşlarımızın həyatına çox mənfi təsir göstərmişdir. Xüsusilə Birinci Qarabağ savaşı başlayan kimi Ermənistan Qarabağı işğal etdi və eyni zamanda, Naxçıvanı blokadaya aldı. Onların planları Naxçıvanı da işğal etmək idi. Ancaq o zaman mənim atam Heydər Əliyev Naxçıvanın rəhbəri kimi buna imkan vermədi və Naxçıvanı qorumaq üçün bütün naxçıvanlılar səfərbər oldular, öz doğma torpaqlarını qorudular və işğalçını yerində oturtdular", - deyə Prezident İlham Əliyev bildirib.

O dövdə Naxçıvanın qorunmasında və ayaqda qalmasında Türkiyənin qardaşlıq dəstəyi də mühüm rol oynayıb. Biz bir xalq olaraq qardaş ölkənin yaxşılığını heç vaxt unutmayacağıq. Bu məqama xüsusi diqqət çəkən Prezident İlham Əliyev vurğulayıb ki, Naxçıvanın o zaman işğal altına düşməməsinin səbəblərindən biri də o idi ki, o zaman Naxçıvanı Türkiyə ilə birləşdirən "Ümid" körpüsü inşa edilmişdir və Türkiyədən gələn yardımlar Naxçıvanın qorunmasına çox önəmli töhfə vermişdir.

***Mübariz ABDULLAYEV***

# Siyasi partiyalar yenidən bir arada

## Sağlam siyasi dialoq ənənələri daha da dərinləşdirilir


















Ölkəmizdə fəaliyyət göstərən siyasi partiya nümayəndələrinin, tanınmış politoloq və siyasi şərhçilərin, habelə internet televiziya kanalları rəhbərlərinin, qəzet redaktorlarının və digər jurnalistlərin növbəti birgə səfəri bu dəfə martın 6-da Xankəndi, Əsgəran və Xocalıya təşkil olunub.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə ölkədə siyasi dialoq mühitinin daha da dərinləşdirilməsi, habelə milli maraqlar və dövlətçilik naminə siyasi proseslərdə etibarlı əməkdaşlıq münasibətlərinin bərqərar edilməsi məqsədilə mütəmadi surətdə müxtəlif səpkili layihələr icra olunur. Azərbaycan ictimaiyyəti son beş il ərzində iqtidarın mövcud istiqamətdəki davamlı təşəbbüslərinin şahididir. Siyasi dialoq ilə əlaqədar bütün təşəbbüslər mətbuatda işıqlandırılır və bu məlumatlar ictimaiyyət üçün tam olaraq açıqdır.

Qeyd edək ki, siyasi dialoq mühitinin təşviqi ilə bağlı təşəbbüslər institusional və qanunverici müstəvilərdə olmaqla yanaşı, ölkəmizdə yeni siyasi mədəniyyətin formalaşdırılması kimi mühüm sahəni də əhatə edir. Təsadüfi deyil ki, dövlətimizin başçısı öz çıxış və müsahibələrində siyasətdə sağlam münasibətlərin bərqərar olunması, siyasi dialoq mühitinin əhəmiyyəti və konstruktiv əməkdaşlığın vacibliyi kimi önəmli demokratik məzmunlu təzahürləri davamlı olaraq qeyd edir.

Konstruktiv əməkdaşlığın qurulması çərçivəsində siyasi partiya rəhbərləri üçün işğaldan azad olunmuş ərazilərə birgə səfərlərin təşkili təcrübəsi xüsusi əhəmiyyətə malikdir. Xatırladaq ki, sağlam və işgüzar münasibətlərin bərqərar olunmasına xidmət edən siyasi dialoq ilə bağlı toplanmış təcrübənin zənginləşdirilməsi üçün ölkə siyasilərinin birgə səfərləri daha öncə Ağdam, Şuşa (2 dəfə) və Zəngilana təşkil olunub.

Xüsusi olaraq vurğulanmalıdır ki, birgə səfərlərin birində ölkə siyasiləri Şuşa Bəyannaməsinin birinci ildönümü münasibətilə 2022-ci il iyunun 15-də Şuşa şəhərində keçirilmiş “Azərbaycan-Türkiyə strateji müttəfiqlik münasibətləri Qafqaz və region üçün sülh və sabitlik mənbəyidir” adlı beynəlxalq konfransda iştirak ediblər. Beləliklə, təşviq olunan dialoq mühiti sayəsində müxalif siyasi partiyalar, eyni zamanda, təşkil olunan beynəlxalq tədbirlərdə də tərəf-müqabili kimi iştirak edirlər.

Növbəti - sayca 5-ci birgə səfərin ünvanı Xankəndi, Xocalı və Əsgərandır. Azərbaycan Respublikası Prezidenti Administrasiyasının təşkilatçılığı ilə baş tutan 6 mart səfərində 24 siyasi partiyanın nümayəndələri, tanınmış politoloq və siyasi şərhçilər, habelə internet televiziya kanallarının rəhbərləri, qəzet redaktorları və digər jurnalistlər iştirak ediblər.

Səfərin iştirakçıları əvvəlcə Əsgəran qala-kompleksi ilə tanış oldular və kompleks haqqında geniş məlumat əldə etdilər.

İştirakçılar səfər çərçivəsində müxtəlif məkanlar ilə yanaşı, Xocalı şəhərində inşa edilən Xocalı Soyqırımı Memorialında aparılan işlərlə yaxından tanış oldular. Səfər iştirakçıları, həmçinin Xocalının Ballıca kəndində tikilən fərdi evlərin və infrastrukturun bərpası sahəsində görülmüş işlərlə tanış olmaq imkanı əldə etdilər.

Daha sonra səfər iştirakçıları Xankəndi şəhərində oldular. Xankəndi şəhərində 2023-cü il noyabrın 8-də Vətən müharibəsində əldə edilən Zəfərin üçüncü ildönümünə həsr olunan hərbi parad keçirildiyi Zəfər meydanını ziyarət edən səfər iştirakçıları burada mətbuat nümayəndələrinə verdikləri müsahibələrdə öz təəssüratları ilə bölüşdülər.

Səfər zamanı Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev Xankəndi şəhərində iştirakçıların qarşısında çıxış edərək ötən dövr ərzində Prezident İlham Əliyevin təşəbbüsü ilə ölkədə davamlı surətdə təşviq olunan həmrəylik mühitinin strateji əhəmiyyəti və mövcud istiqamətdə görülmüş işlər haqqında məlumat verdi.

Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində qazanılan şanlı Qələbənin bütün dünya azərbaycanlılarının qürur mənbəyi olduğunu xüsusi vurğulayan Administrasiya rəsmisi qeyd etdi ki, Xankəndi şəhərində Zəfər meydanında ölkənin bütün əsas siyasi partiyalarının bir yerdə toplanması da Azərbaycanın siyasi tarixində əlamətdar hadisə kimi dəyərləndirilməlidir. Ədalət Vəliyev çıxışında bildirdi ki, müharibə dövründə olduğu kimi hər zaman vətənpərvər qüvvələri birləşdirən əsas amil milli maraqlar və dövlətçilik mövqeyidir.



Səfər çərçivəsində siyasilər Xankəndi, Xocalı və Əsgəranın iqtisadi, habelə turizm potensialı ilə də tanış oldular. Təbii landşaft, nadir təbiət, gözəl meşələr, dağlar, bulaqlar, çaylar, habelə icra olunan infrastruktur layihələri - bütün bunlar regionun inkişafı üçün zəmin yaradır. Səfərin iştirakçılarına bildirildi ki, Xankəndi, Xocalı və Əsgəranın turizm potensialı digər rayonlarda yaradılacaq turizm imkanları ilə də uzlaşdırılacaqdır. Burada hotellər, istirahət zonaları yaradılacaq və kənd turizmi də inkişaf etdiriləcəkdir. Nəzərə alınmalıdır ki, yaradılacaq yeni infrastruktur Qarabağa qayıdacaq insanlar üçün məşğulluq və gəlir mənbəyi olacaq.

Təşkil olunmuş səfər timsalında sevindirici haldır ki, siyasi proseslərdə iştirak edən tərəflər arasında işgüzar mühitin və sağlam münasibətlərin qorunması məqsədilə atılan bütün addımlar siyasi partiya rəhbərləri tərəfindən fəal şəkildə dəstəklənir. Təşviq olunan dialoq mühiti konstruktiv əməkdaşlığı, dövlət naminə şəxsi ambisiyalardan imtina olunmasını, milli həmrəyliyi, habelə etibarlı münasibətləri tərənnüm edir.




# Əlaqələr genişlənir...

## Azərbaycanla Birləşmiş Ərəb Əmirlikləri arasında siyasi, iqtisadi, turizm və digər istiqamətlərdə əməkdaşlıq inkişaf edir

Azərbaycan beynəlxalq aləmdə etibarlı tərəfdaş kimi tanınır. Bunu dünya ölkələrinin, nüfuzlu beynəlxalq təşkilatların Azərbaycanla əməkdaşlıqda maraqlı olmaları da təsdiqləyir. Prezident İlham Əliyevin xarici ölkələrə, həmçinin dünya ölkələrinin liderlərinin isə Azərbaycana səfərləri dövlətimizin beynəlxalq əlaqələrinin genişlənməsinə töhfəsini verməkdədir. Son illər Azərbaycanın Avropa, Türk dünyası ölkələri ilə olduğu kimi, ərəb dövlətləri ilə də münasibətləri yeni inkişaf mərhələsinə qədəm qoyub. Bu mənada, Birləşmiş Ərəb Əmirlikləri ilə münasibətlər xüsusi əhəmiyyətə malikdir.

Yeri gəlmişkən, martın 4-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovla Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) xarici işlər naziri Abdullah bin Zayed Əl Nəhyan arasında telefon danışığı olub. Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən verilən məlumata görə, telefon danışığı zamanı ölkələrimiz arasında strateji tərəfdaşlıq çərçivəsində görülən işlər, həm ikitərəfli, həm də çoxtərəfli çərçivədə əməkdaşlıq perspektivləri, habelə regional və beynəlxalq təhlükəsizlik məsələləri müzakirə olunub.

Nazirlər 2025-ci ildə siyasi, iqtisadi, ticarət, energetika, turizm və digər istiqamətlərdə əməkdaşlıq əlaqələrinin daha da inkişaf edəcəyinə əmin olduqlarını vurğulayıblar. Telefon danışığı zamanı, həmçinin digər beynəlxalq platformalarda əməkdaşlıq istiqamətləri, habelə Yaxın Şərqdə vəziyyət barədə fikir mübadiləsi aparılıb.

Ümumiyyətlə, Azərbaycanın ərəb dünyası ilə dərin tarixi-mədəni bağlılığı var. Ərəb ölkələri də mütəmadi olaraq Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə öz dəstəyini ifadə edib. Azərbaycan ilə BƏƏ arasında diplomatik münasibətlər 1992-ci ildə qurulub. Ölkələrimiz arasında əlaqələr əsasən beynəlxalq təşkilatlar, xüsusilə də BMT və İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində inkişaf edib. Diplomatik əlaqələrin inkişafı 1993-cü ildə Heydər Əliyevin hakimiyyətə qayıdışından sonraya təsadüf edir. Qarşılıqlı dostluq və hörmət prinsiplərinə əsaslanan Azərbaycan-BƏƏ əlaqələri hər zaman yüksək səviyyəsi, dialoq mühitində inkişaf tempi ilə diqqət çəkib. Münasibətlərimizin çoxşaxəli və dinamik olması, açıq siyasi dialoq ölkələrimiz arasında enerji və iqtisadi sahələrdə də əlaqələrin inkişafına müsbət təsir göstərib.

2006-cı il noyabrın 20-21-də Prezident İlham Əliyevin Birləşmiş Ərəb Əmirliklərinə ilk rəsmi səfəri isə iki ölkə arasında əlaqələrin inkişafına təkan verib. Səfər çərçivəsində iki ölkə arasında iqtisadi, ticari və texniki əməkdaşlıq, gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması, investisiyaların təşviqi və qarşılıqlı qorunması, səhiyyə və tibb elmi, hərbi əməkdaşlıq, həmçinin ali təhsil sahələrində əməkdaşlıq haqqında sazişlər bağlanıb.

Azərbaycan ilə BƏƏ arasında əlaqələrin inkişafında enerji sektorunun xüsusi payının olması şübhəsizdir. Zəngin neft-qaz potensialı ilə Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayan Azərbaycan bu sahədə imkanlarını daha da şaxələndirir və elektrik enerjisi, əsasən də "yaşıl enerji"nin önəmli təchizatçısına çevrilməyi planlaşdırır. Bununla bağlı mövcud potensialın reallaşdırılması, investisiya qoyuluşu "yaşıl enerji" sektorunun sürətli inkişafına yol açır. Xəzərin Azərbaycan sektorunda təsdiq olunmuş külək enerjisi potensialı 157 qiqavata bərabərdir. Azərbaycan 2030-cu ilədək olan dövrü əhatə edən strateji mərhələdə ölkənin elektrik enerjisinin istehsal gücündə bərpaolunan enerji mənbələrinin payının 30-40 faiz çatdırılması hədəf kimi qarşıya qoyulub.

2021-ci il aprelin 6-da Azərbaycanın Energetika Nazirliyi, "AzərEnerji" ASC və Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti arasında investisiya, enerji alqı-satqısı və ötürücü şəbəkəyə qoşulma ilə bağlı müqavilələr imzalanıb. Bu müqavilələr əsasında qurulan əməkdaşlıq çərçivəsində 2022-ci il martın 15-də "Gülüstan" sarayında Azərbaycan Prezidenti İlham Əliyevin iştirakı ilə Xəzər regionunda və MDB məkanında ən böyük Günəş elektrik stansiyasının - Qaradağ Günəş Elektrik Stansiyasının təməli qoyulub. Ötən ilin oktyabrında isə Qaradağ Günəş Elektrik Stansiyası istifadəyə verilib.

Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyanin 2024-cü ildə Azərbaycana rəsmi və COP29 ilə bağlı səfərləri, bu səfərlər çərçivəsində dövlətimizin başçısı ilə keçirdiyi görüşlər və aparılmış müzakirələr də münasibətlərin hazrkı səviyyəsini ifadə edir. Təsadüfi deyil ki, COP29-un Azərbaycanda keçirilməsi haqqında qərar məhz BƏƏ-də keçirilən COP28-də qəbul olunmuşdu.

Prezident İlham Əliyevin isə bu il yanvarın 13-də bu ölkəyə işgüzar səfəri iki ölkə arasında yüksələn xətlə inkişaf edən əlaqələrin göstəricisidir. Prezidentin Əbu-Dabi Dayanıqlılıq Həftəsinin rəsmi açılış mərasiminə dəvət edilməsi və bu mötəbər tədbirdə iştirakı da Azərbaycana və onun rəhbərinə göstərilən yüksək ehtiramın ifadəsidir.

Bütövlükdə, Azərbaycan müsəlman ölkəsi olaraq bu coğrafiyaya daxil olan dövlətlərlə yüksək səviyyədə əməkdaşlığını davam etdirir. İki ölkənin birgə səyləri nəticəsində Azərbaycan-BƏƏ əlaqələri bundan sonra da yüksələn xətlə inkişaf edəcək.

***Nardar BAYRAMLI***

# Ekoloji təmiz nəqliyyat parkı üçün...

## Elektrik mühərrikli yük avtomobilləri idxal gömrük rüsumundan azad edilib

Azərbaycanda elektrik mühərrikli yük avtomobilləri idxal gömrük rüsumundan azad edilib. Baş nazir Əli Əsədovun imzaladığı müvafiq qərara əsasən, zavod buraxılış tarixlərinə uyğun olaraq yalnız elektrik mühərriki ilə hərəkətə gətirilən, zavod buraxılış tarixindən 3 ilədək ötmüş yük avtomobillərinə tətbiq olunan idxal gömrük rüsum dərəcəsinin həddi 2025-ci il martın 4-dən 2028-ci il yanvarın 1-dək 0 faiz dərəcəsi təyin edilib. Yəni indiyə qədər 5 faiz dərəcə ilə gömrük rüsumuna cəlb edilən həmin avtonəqliyyat vasitələri üçün bundan sonra heç bir idxal gömrük vergisi hesablanmayacaq.

## Ətraf mühitə zərər vuran nəqliyyat vasitələri sıradan çıxarılır

Hökumətin bu qərarı qəbul etməsində başlıca məqsəd ekoloji cəhətdən təmiz və təhlükəsiz nəqliyyat vasitələrindən istifadənin stimullaşdırılması və bu sahədə qanunvericiliyi təkmilləşdirmək məqsədi daşıyır. Belə ki, yeni ekoloji siyasət çərçivəsində ətraf mühitə dost texnologiyalardan və tükənməyən enerji mənbələrindən istifadənin genişləndirilməsi, daha təmiz yanacağa keçidin təmin olunması, havanın keyfiyyətinə mənfi təsir göstərən nəqliyyat vasitələrinin tədricən sıradan çıxarılması və ekoloji cəhətdən təmiz və müasir maşın parkınının yaradılması istiqamətində davamlı addımlar atmaqdadır.

Həmin siyasət çərçivəsində az karbonlu nəqliyyat sektorunun inkişaf etdirilməsi tədbirlərinə uyğun olaraq ekoloji baxımdan daha təmiz avtomobillərin idxalına vergi-gömrük güzəştlərinin tətbiqi əsas prioritetlərdən biri kimi müəyyən olunub və qanunvericilik təkmilləşdirilib. 2019-cu ildən etibarən, mərhələli şəkildə elektrik və hibrid mühərrikli avtomobillərə, eyni zamanda, enerji doldurucularına və sıxılmış qazla işləyən avtobuslara güzəştlərin tətbiqinə başlanılıb.

Vergi Məcəlləsinə edilmiş dəyişikliklərə əsasən, ilk növbədə minik maşınlarına bu vergi tətilləri tətbiq olunub. 2019-cu ildən elektrik mühərriki ilə işləyən avtomobillərin idxalı əlavə dəyər vergisindən (ƏDV) azad olunub. 2022-ci il yanvarın 1-dən isə elektrik mühərriki ilə işləyən avtomobillər üçün ikinci və üçüncü səviyyə elektrik enerji doldurucularının idxalı və satışı 3 il müddətinə, istehsal tarixi 3 ildən və mühərrikinin həcmi 2500 kubsantimetrdən çox olmayan hibrid avtomobillərin idxalı 4 il müddətinə ƏDV-dən azad edilib. Sürücü daxil olmaqla, 10 nəfərdən çox adam daşımaq üçün nəzərdə tutulmuş sıxılmış qazla işləyən avtobusların idxalı 2020-ci il yanvarın 1-dən 5 il müddətinə ƏDV-dən azaddır. Həmçinin, Nazirlər Kabinetinin müvafiq qərarına uyğun olaraq, zavod buraxılış tarixindən 3 ilədək ötmüş yalnız elektrik mühərriki ilə hərəkətə gətirilən minik avtomobilləri və avtomobillər üçün ikinci və üçüncü səviyyəli enerji doldurucularının idxalı gömrük rüsumundan azad edilib.



## Vergi güzəştləri elektromobillərin idxalını artırıb

Vergi qanunvericiliyində aparılmış növbəti dəyişikliklərə əsasən, 2025-ci il yanvarın 1-dən etibarən elektrik mühərriki ilə işləyən avtomobillər üçün enerji doldurucularının idxalı və satışı 2 il müddətində ƏDV-dən azad olunub.

Hökumətin elektomobillərə güzəştləri və avtomobil parkını "yaşıllaşdırması" siyasəti nəticəsində ekoloji cəhətdən təmiz avtonəqliyyat vasitələrinin idxalı və nəqliyyatda sayı artmağa başlayıb. Təkcə son 2 il ərzində hibrid və elektromobillərin idxalı 2 dəfən çox böyüyüb. 2024-cü ildə yanacaq mühərrikli minik avtomobillərinin idxalı əvvəlki ilin göstəricisi ilə müqayisədə 25 faiz azalıb, əvəzində elektromobillərin idxalı xeyli artıb. Belə ki, hibrid minik avtomobillərinin sayı isə 2023-cü illə müqayisədə ötən il 29,6 faiz artaraq 15 min 815 ədədə çatıb. Həmçinin, ötən il 3 mindən artıq elektromobil idxal olunub ki, onların sırasında sərnişin nəqliyyat vasitələri də var.

Hökumətin elektrik mühərriki ilə işləyən yük avtomobillərini idxal gömrük rüsumundan azad etməsi həmin avtonəqliyyat vasitələrinin də yerli bazarda sayının artmasına səbəb olacaq. Ən mühüm amil isə ölkəyə xaricdən mal gətirən bu nəqliyyat vasitələri yanacaqla işləmədiyindən daşınmaların əhəmiyyətli yer tutan həmin xərclərin azalması sayəsində ümumi logistika xərcləri də aşağı düşəcək və bu yerli bazarda bir çox malların bahalaşmasının qarşısını alacaq.

***ELBRUS***



# Kosmik ailənin yeni üzvü

## "Azersky2" peyki ölkəmizin kosmik sənaye ixracatçısı kimi dünyada mövqeyini gücləndirəcək

Azərbaycanın Kosmik Agentliyi ("Azərkosmos") "Azersky 2" peykini ölkəmizdə hazırlanmış ilk böyük peyk layihəsi kimi qlobal kosmik sənaye cəmiyyətinə təqdim etmək niyyətindədir. Agentliyin rəhbər vəzifəsini icra edən Dunay Bədirxanov bildirib ki, indiyə qədər kosmosa göndərilmiş peyklərdə yerli mütəxəssislərimiz çox az olduğu üçün bu prosesə xaricdən mühəndislər cəlb olunurdu. Hazırda peyk idarəetmə üzrə yerli mütəxəssislərin hazırlanması "Azərkosmos"un imkanlarını gücləndirib. Bu potensial isə "Azersky 2" peykinin birbaşa Azərbaycanda layihələndirilməsi, yığılması və hazırlanmasını təmin edib. Peyk proqramının idarə olunması da milli kadrlar tərəfindən həyata keçiriləcək.

Qeyd edək ki, Azərbaycanın növbəti optik müşahidə peykinin 2026-cı ildə orbitə buraxılması nəzərdə tutulur. "Israel Aerospace Industries" şirkəti ilə birgə hazırlanan yeni peyk ölkəmizdə yer səthinin müşahidəsi sektorunda davamlılığı təmin edəcək, hazırda azad edilmiş ərazilərdə aparılan tədqiqatların sürətlənməsinə töhfə verəcək.

## Türkiyə ilə birgə kosmik əməkdaşlıq

Azərbaycan qlobal fəzada "Azerspace-1", "Azerspace-2" və "Azersky" peykləri ilə təmsil olunmaqdadır. "Azərkosmos" son illərdə dünya kosmik ailəsinin etibarlı üzvü kimi dünyanın ən qabaqcıl şirkətləri ilə əməkdaşlığı artıraraq yeni nəsil texnologiyaların tətbiqinə nail olmaqdadır. Bir müddət əvvəl qardaş Türkiyənin "İmpro" şirkəti ilə imzalanmış əməkdaşlıq müqaviləsinə əsasən, Kosmik Agentlik "Göktürk-1" peyki vasitəsilə təsvir və həllərdən istifadəni də əldə edəcək. Ötən ilin sonlarında Azərbaycanın Kosmik Agentliyi ilə İtaliyanın yerüstü idarəetmə şirkəti olan "Leaf Space"lə imzalanmış əməkdaşlıq müqaviləsinə əsasən, "Azərkosmos"un Əsas Yerüstü Peyk İdarəetmə Mərkəzinin Bakı teleportunda 3,7 metrlik "S/X" diapazonlu anten quraşdırılıb. Yeni qurğu sistemi müxtəlif peyklərdən toplanan kritik məlumatların emalı və ötürülməsini, peyk şəbəkələri arasında nəzarəti, eləcə də kosmosdakı cihazların monitorinqini həyata keçirməyə imkan verir.

## ABŞ və Çinin kosmik nəhəngləri ilə bir platformada

Bundan başqa, "Azərkosmos" ötən ilin sonunda Çinin qlobal terminal istehsalçısı olan "StarWin" şirkəti ilə müqavilə imzalayaraq regionda rabitə xidmətlərinin əhatəsini genişləndirmək üçün əlavə peyk resursu bazası qazanıb. Çin şirkəti ilə əməkdaşlıq çərçivəsində, müştərilərə ənənəvi rabitə infrastrukturu olmayan uzaq bölgələrdə xidmət göstəriləcək ki, həmin xidmətləri "Azconnexus"- StarWin" peyk internet platforması birlikdə təchiz edəcək.

Beynəlxalq əməkdaşlıq çərçivəsində "Azərkosmos" qlobal peyk operatoru olan "ABS" şirkəti ilə faydalı əlaqələr qurub. Niderlandda keçirilən "IBC 2024" beynəlxalq sərgi-konfransında ABŞ-ın eyniadlı şirkəti ilə imzalanmış sazişə əsasən, milli kosmik şirkətimiz Amerikanın peyk vasitəsilə Nigeriya ərazisində öz müştərilərinə "Pay TV" xidmətini təqdim edəcək. Həmçinin, dünyanın ən güclü qlobal peyk operatorlarından biri ilə yaxın tərəfdaşlıq "Azərkosmos"un biznes xətlərini genişləndirməyə, təkcə öz peyk resurslarının satışı ilə deyil, qlobal partnyorlara məxsus peyk xidmətlərinin kommersiyalaşdırılması sayəsində də gəlir əldə etməyə imkan verəcək.

Yeni "Azersky2" peykinin fəzaya buraxılması isə kosmik sənayedə mühüm dönüşə səbəb olacaq. 5 il fəaliyyətdə olacağı təxmin edilən peyk ilə 500 km hündürlükdən uzunluğu 400 km-ə, eni isə 5 km-ə qədər fotolar çəkmək mümkündür. Peyk, ayırdetməsi 50 smdən daha yaxşı təsvirlər əldə etmək üçün elektro-optikal kamera ilə təchiz ediləcək . Peykin məlumat yaddaşı 1 TB müəyyən edilib. Qurğu saniyədə 0.5 GB ölçüdə material ötürə biləcək. Peyk "OPTSAT 500" platforması üzərində istehsal ediləcək. Beləliklə, yeni peyk qurğusu Azərbaycanın ən son nəsil peyk parkının yaranmasına və çoxşaxəli və daha dəqiq müşahidələr aparmağa imkan verəcək.

## Azərbaycan Cənubi Qafqaz və Xəzər regionunda texnologiya habına çevrilir

Yeni peyk Azərbaycanın beynəlxalq regionun kosmik mərkəzinə çevrilməsi yönündə səylərini daha da möhkəmləndirəcək, eyni zamanda, ölkəmizin informasiya təhlükəsizliyində və kosmos sahəsində digər dövlətlərdən asılılığını tam aradan qaldıracaqdır. Azərbaycanın həm Cənubi Qafqazda, həm də Xəzər regionunda texnologiya habına çevrilməsi prosesi daha da sürətlənəcək və dünyada öncül mövqeyini möhkəmləndirəcək.

"Azersky2" Azərbaycan peyk məhsulları və kosmik sənaye ixtacatçısı kimi dünyada mövqeyini artıracaq. Hazırda Avropa, Afrika, Yaxın Şərq, Mərkəzi Asiya regionlarının 50-dək ölkəsindən 200-dən artıq müştəriyə xidmət göstərərək qlobal və regional peyk xidmətləri ixrac edən "Azərkosmos"un ixrac coğrafiyasının genişlənərək 60-dən çox ölkəni əhatə etməsi mümkün olacaq. Eyni zamanda, qeyri-neft ixracının əsas bölmələrindən birinə çevrilən İT və rəqəmsal texnologiyaların ixracından əldə edilkən valyutanın həcmini artıracaq.

Ötən il peyk əmtəəsindən 18 milyon dollar gəlir əldə edən Azərbaycanın yaxın onillikdə bu sahədən ən azı 50-100 milyon dollar dəyərində valyuta qazanması istisna edilmir.

Sözsüz ki, bunlar Azərbaycan iqtisadiyyatının güclənməsinə, post-neft dövründə milli gəlirlərin strukturunda kosmik sənaye dividendlərinin artmasına səbəb olacaq.

***E.CƏFƏRLİ***

# Kiyevə silah tədarükü bərpa olunacaqmı?

## Rəsmi Vaşinqton bununla bağlı şərtini açıqlayıb

ABŞ və Ukrayna liderlərinin Ağ Evdə görüşündən sonra Donald Trampın Kiyevə hərbi yardımın dayandırılması barədə qərarı qarşı tərəfi çətin vəziyyətə salıb. Müharibə şəraiti yaşayan Ukraynanın Vaşinqtonun dəstəyindən məhrum olması onun üçün yaxşı heç nə vəd etmir. Ona görə də, bir neçə gündür rəsmi Kiyev Vaşinqtonla məlum danışıqları bərpa etməyə çalışır.

### Nümayəndə heyətləri görüşəcək

Artıq Ukrayna və ABŞ nümayəndə heyəti yaxın vaxtlarda görüşə dair razılığa gəlib. Bu barədə Ukrayna Prezident Aparatının rəhbəri Andrey Yermak teleqram sosial səhifəsində məlumat verib. “Mənim ABŞ-ın milli təhlükəsizlik üzrə müşaviri Maykl Vals ilə telefon danışığım olub və ədalətli, davamlı sülhə doğru gələcək addımları müzakirə etdik”, - deyə Yermak bildirib. Həmçinin Ukrayna ilə ABŞ arasında ikitərəfli münasibətlər çərçivəsində təhlükəsizlik məsələləri və mövqelərin əlaqələndirilməsi ilə bağlı fikir mübadiləsi aparılıb. “Biz bu vacib işi davam etdirmək üçün yaxın gələcəkdə komandalarımızla görüşmək barədə razılığa gəldik” - deyə A.Yermak vurğulayıb.

Bu faktı ABŞ prezidentinin milli təhlükəsizlik üzrə müşaviri Maykl Vals da təsdiqləyib. O, Ağ Evdə jurnalistlərə bildirib ki, ABŞ hazırda Ukrayna ilə münasibətlərinin bütün aspektlərini yenidən dəyərləndirir: “Biz bir addım geri çəkildik və ara verdik. Hazırda bu münasibətlərin bütün aspektlərini yenidən gözdən keçiririk”. Vals da ukraynalı həmkarı ilə telefonla danışdığını və münaqişənin həlli ilə bağlı danışıqların keçiriləcəyi



mümkün platforma və bu danışıqlardakı nümayəndə heyətlərinin tərkibi barədə müzakirə apardığını vurğulayıb: “Növbəti danışıqlar turunun yeri, nümayəndə heyətləri və danışıqların məzmunu ilə bağlı yaxşı müzakirələr aparırıq”. O, son bir sutkada bu sahədəki hadisələrin inkişafından nikbin olduğunu deyib: “Düşünürəm ki, çox yaxında hərəkətlilik görəcəyik”.

### Əgər mineral ehtiyatlara dair saziş imzalanarsa...

“The New York Times” isə Tramp administrasiyasındakı mənbələrə istinadla məlumat yayıb ki, Zelenski mineral ehtiyatlara dair saziş imzalayarsa, Amerikanın Ukraynaya silah tədarükü bərpa oluna bilər: “Əgər Zelenski saziş bağlasa, kəşfiyyat məlumatlarının mübadiləsi davam edəcək, Bayden administrasiyası tərəfindən artıq ayrılmış hərbi təchizat bərpa olunacaq”. Nəşr qeyd edir ki, bununla belə, saziş imzalanacağı təqdirdə, Trampın hansı həcmdə əlavə hərbi yardım verməyə hazır olduğu bəlli deyil.

ABŞ-ın 47-ci prezidentinin administrasiyası təklif edib ki, Zelenski Ağ Evin tələblərinə tabe olarsa, Ukraynaya dəstək fasiləsi nisbətən qısamüddətli ola bilər. Qəzet xatırladır ki, Tramp ABŞ Konqresinə müraciətində Zelenskidən məktub aldığını və orada Ukrayna Prezidentinin “mümkün qədər tez danışıqlar masasına oturmağa” razılıq verməsini yüksək qiymətləndirdiyini bildirib.

Belə bir şəraitdə Birləşmiş Krallıq Kiyevə kömək əlini uzada bilər. Londonda yerləşən “Istok Associates Limited” kəşfiyyat konsaltinq şirkətinin baş direktoru Nil Barnett “Politico”ya açıqlamasında deyib ki, ABŞ tərəfindən yaradılan Ukraynaya kəşfiyyat məlumatlarının təminatında yaranan boşluğu Böyük Britaniya doldurmağa çalışacaq: “Britaniyalılar bu boşluğu doldurmağa çalışacaqlar. Bizim suveren “RAF Akrotiri”də dinləmə postlarımız var, bu ərazidə “Rivet Joint” reyslərimiz həyata keçirilir. Lakin açıq-aydın göründüyü kimi, bizdə amerikalıların malik olduğu bütün imkanlar yoxdur və bəzi şeyləri sadəcə, əvəz etmək mümkün deyil”. Barnett, həmçinin vurğulayıb ki, Tramp administrasiyasının qərarı Ukrayna silahlı qüvvələri (USQ) üçün ağır təsir göstərəcək.

Beləliklə, rəsmi Kiyevin Vaşinqtonla əməkdaşlığı bərpa etməkdən başqa çıxış yolu yoxdur. Ona görə də, tərəflərin nümayəndə heyətlərinin görüşü tezliklə reallaşa bilər.

### Zelenski Avropa ilə birgə plan hazırlayır

Xatırladaq ki, bugünlərdə Zelenski də deyib ki, Ukrayna və Avropa ədalətli, davamlı sülhə nail olmaq istiqamətində ilk addımlar üçün plan hazırlayır. O, teleqram sosial səhifəsində yazıb: “Biz bunun üzərində sürətlə işləyirik. O, yaxın vaxtlarda hazır olacaq”. Zelenskinin sözlərinə görə, Avropanın müharibəni dayandırmaq və təhlükəsizliyi təmin etmək üçün ümumi baxışı var, bu, Ukrayna və ABŞ-ın gələcək danışıqlar masasında da olmalıdır.

Bütün bunların fonunda isə ABŞ administrasiyası Kiyevə yardımın maliyyələşdirilməsini yenidən nəzərdən keçirir. Ağ Evin mətbuat katibi Karolin Levitt ABŞ və Ukrayna arasında kəşfiyyat məlumatlarının mübadiləsinin dayandırılması ilə bağlı xəbərləri şərh edərək deyib: “Ağ Evin Milli Təhlükəsizlik Şurası bununla bağlı mənə bildirdi ki, onlar Ukraynanın maliyyələşdirilməsini dayandırıblar və nəzərdən keçirirlər”.

*N.BAYRAMLI*

# Qəzzada vəziyyət gərginləşir...

## Ərəb dövlətlərinin quruculuq planı işə yaramadı

İsrail ilə HƏMAS arasında razılaşdırılmış altı mərhələlik atəşkəs prosesi yeni gərginliklə əvəz olunmaqdadır. Xatırladaq ki, yanvarın 19-dan qüvvəyə minən razılaşmanın ilkin mərhələləri müəyyən mənada icra olundu. Belə ki, atəşkəsin ertəsi günü İsrail HƏMAS hərəkatı ilə Qəzza zolağında saxlanılan girovların azad edilməsi və atəşkəsin tətbiqi ilə bağlı razılaşma çərçivəsində 90 fələstinli məhbus azad edildi, HƏMAS isə üç israilli girovu geri qaytardı. Amma az keçmədi ki, proses yenidən dalana dirəndi. Girovların azad edilməsi məsələsindəki anlaşılmazlıq yenidən silahların dillənməsinə yol açıb.

### Trampdan ultimatum...

Donald Trampın Qəzza ilə bağlı açıqlamaları isə vəziyyəti daha da gərginləşdirib - xüsusilə, Qəzza sakinlərinin ərazini tərk edərək başqa ölkələrin ərazilərinə köçürülməsi ilə bağlı fikirləri birmənalı qarşılanmayıb və tənzimləməyə mənfi təsir göstərib. Tramp isə iddialarından geri durmaq fikrində deyil. Bu dəfə o, HƏMAS-a ultimatum verərək, bütün girovların dərhal azad edilməsini tələb edib və əks halda ciddi nəticələrlə üzləşəcəklərini bildirib. “Truth Social” hesabındakı paylaşımında da ABŞ Prezidenti deyib: “Şalom, HƏMAS” həm salam, həm də vidalaşma deməkdir - seçim sizindir. Girovların hamısını dərhal sərbəst buraxın, hələ gec deyil. Həmçinin, öldürdüyünüz insanların cəsədlərini geri qaytarın, yoxsa sizin üçün yol burada bitəcək”.

Bundan əlavə, Tramp HƏMAS-ı İsrailə tam dəstək verməklə də təhdid edib. “Mən İsrailə münaqişəni sona çatdırmaq üçün lazım olan hər şeyi göndərirəm. Əgər tələblərimə əməl etməsəniz, HƏMAS üzvləri üçün təhlükəsiz yer qalmayacaq. Elə indicə həyatlarını alt-üst etdiyiniz keçmiş girovlarla görüşdüm. Bu, sizin üçün son xəbərdarlıqdır! Hələ imkan varkən Qəzzanı tərk edin”, - deyə paylaşımda qeyd olunub.



### Qəzzanın bərpası üçün...

Trampın bu davranışının qarşılığında isə hələ də nizamlanmaya ümid edən ölkələr var. Belə ki, Ərəb dövlətləri Qəzza zolağının sakinlərinin köçürmədən prosesi inkişaf etdirməklə bağlı planlarını təklif ediblər. Martın 4-də Misirin paytaxtı Qahirədə keçirilən Ərəb Liqasının növbəti sammitində ərəb ölkələri liderləri tərəfindən qəbul edilən sənəddə Qəzza zolağının yenidən qurulması üçün vəsaitin ayrılmasını özündə ehtiva edən plan qəbul edilib. Misir tərəfindən hazırlanmış təşəbbüs insanların anklav ərazisindən köçürülməsini nəzərdə tutmur. Plana görə Qəzza zolağının yenidən qurulması üç mərhələdə aparılmalıdır. Bu müddət ərzində anklavda infrastruktur bərpa olunacaq, yeni yaşayış binaları, balıqçılıq limanı, sənaye zonaları və hava limanı tikiləcək.

Layihənin həyata keçirilməsi üçün ayrılan vəsaitlərin beynəlxalq nəzarət altında olan fondda saxlanılması nəzərdə tutulur ki, bu da onların xərclənməsinin şəffaflığını artıracaq. Bundan əlavə, Fələstin hökumətinin Qəzzanı idarə etmək üçün müstəqil texnokratlardan və partiyasız şəxslərdən ibarət komitə yaratması gözlənilir. Komitə Fələstin Muxtariyyətinə əraziyə nəzarəti tam bərpa etmək üçün nəzərdə tutulan altı aylıq keçid dövründə anklavı idarə edəcək. Qəzza zolağının yenidən qurulmasını nəzərdə tutan planın birinci mərhələsi qarşıdakı iki ildə Qəzzada təxminən 20 milyard dollara 200 min evin tikintisini nəzərdə tutur.

### İsrail və ABŞ planı qəbul etmir - HƏMAS pislənilməyib...

Bu plan barədə İsrail Xarici İşlər Nazirliyi və Ağ Ev məlumat yayıb. İsrail Xarici İşlər Nazirliyinin bəyanatında bildirilir ki, “Ərəb Liqasının fövqəladə sammitində qəbul edilən sənəd 2023-cü il oktyabrın 7-dən yaranmış vəziyyətin reallıqlarını əks etdirmir və köhnəlmiş konsepsiyalara əsaslanır”. Nazirlik vurğulayıb ki, sənəddə xüsusilə minlərlə israillinin ölümünə və yüzlərlə adamın girov götürülməsinə səbəb olan HƏMAS-ın hücumlarından bəhs edilmir. Həmçinin ərəb ölkələrinin təklif etdiyi planda terror təşkilatı pislənmir.

Ağ Evin Milli Təhlükəsizlik Şurasının sözçüsü Brayan Hughes isə deyib ki, bu təklifdə Qəzzanın hazırda yaşayış üçün yararsız olması və sakinlərin dağıntılar, o cümlədən partlamamış hərbi sursatlarla örtülmüş ərazidə təhlükəsiz şəkildə yaşaya bilməyəcəkləri reallığı nəzərə alınmır. O əlavə edib ki, ABŞ prezidenti Donald Tramp Qəzzanın HƏMAS-sız yenidən qurulması təklifini davam etdirəcək.

### HƏMAS ərəb dövlətlərini “tələsdirir”...

HƏMAS isə ərəb ölkələri liderlərinin qəbul etdiyi sənədi alqışlayıblar. Təşkilat planın uğurlu tətbiqi üçün vəsait tələb edib və Liqa sammitini Fələstin məsələsinə ərəb və İslam dəstəyi kontekstində “irəliyə addım” adlandırıb. HƏMAS-ın sözçüsü Hazem Qasem bildirib ki, İsrail Qəzza zolağının blokadasını davam etdirir və orada aclığın yaranmasına yol açır: “Bu baxımdan, Ərəb Liqasının qəbul etdiyi bəyannamənin müddəalarının, xüsusən də anklavın blokadasının götürülməsi və məcburi köçkünlərin qayıtmasının qarşısının alınması üçün oraya humanitar yardımın gətirilməsi çağırışının həyata keçirilməsinə ehtiyac artıb”.

### HƏMAS “yox” dedi, humanitar yardım dayandırıldı...

Beynəlxalq KİV-lər isə İsrailin Qəzzada atəşkəs və əsir mübadiləsinin birinci mərhələsinin başa çatmasından sonra fələstinlilərə qarşı təhdidləri artırdığını yazır. Qəzzada 42 gün davam edən atəşkəs və əsir mübadiləsi razılaşmasının birinci mərhələsi martın 1-də yekunlaşıb. İkinci mərhələ üzrə danışıqlar fevralın 3-də başlamalı olsa da, mediaya görə buna Netanyahunun qərarı mane olub. İsrail mediası isə bölgədə gərginliyin yenidən arta biləcəyi təhlükəsindən yazıb. Qeyd edilir ki, yeni mərhələdə Qəzza zolağının elektrik enerjisinin tamamilə kəsilməsi və şimala gələn fələstinlilərin geri göndərilməsini nəzərdə tuturdu. Həmçinin qeyd edilir ki, planda Qəzzaya irimiqyaslı hərbi zərbələrin endirilməsi də var.

Xatırladaq ki, İsrail baş nazirinin dəftərxanasının martın 2-də yaydığı məlumatda bildirilirdi ki, Benyamin Netanyahu Qəzza zolağına bütün növ humanitar yardımların idxalını tamamilə dayandırmaq haqda qərar qəbul edib.

Qeyd edək ki, Netanyahunun ofisi bir neçə gün öncə bəyan etmişdi ki, İsrail rəhbərliyi ABŞ prezidentinin xüsusi elçisi Stiven Vitkoffun Ramazan və Pasxa bayramları dövründə Qəzza zolağında müvəqqəti atəşkəslə bağlı planını qəbul edir. İsrail tərəfi bildirmişdi ki, HƏMAS Amerikanın xüsusi nümayəndəsinin təklifini qəbul edərsə, İsrail “Vitkoff planının bütün detalları üzrə dərhal danışıqlara başlayacaq”. Lakin sonradan HƏMAS-ın Vitkoff planından imtina etdiyi məlum olub. Bununla əlaqədar olaraq İsrail Müdafiə Qüvvələri Qəzza zolağına humanitar yardımın daxil olmasını dayandırdığını və onunla bütün sərhəd keçidlərini bağladığını açıqlayıb.

*S.İSMAYILZADƏ*

# Ermənistanın xəyal qırıqlığı...

**Revanşizm mövqeyindən çıxış edən məğlub Ermənistanın postmüharibə dövründə özünə güclü müttəfiqlər tapmaq üçün sərgilədiyi çabalar bir nəticə vermir. Fransanın, şəxsən Makronun Ermənistana "əbədi sevgisi" hələ öz qüvvəsində qalsa da, Nikol Paşinyan kollektiv Qərbin drayver qüvvəsi olan ABŞ-dan, daha dəqiq desək, Tramp administrasiyasından istədiyini ala bilmir. Ağ Evdə məlum administrasiya dəyişikliyinin nəticəsi olaraq Bayden dönəminin başa çatması ilə ABŞ-ın xarici siyasətində ciddi korrektələr müşahidə edilir ki, bundan ciddi şəkildə təsirlənən ölkələr sırasında Ermənistan da var.**

## ABŞ-ın yeni administrasiyasının ögey münasibətindən qaynaqlanan məyusluq

Məsələnin mahiyyəti ondan ibarətdir ki, keçmiş administrasiya dönəmində Ermənistan Ağ Evin bir növ əziz-xələfinə çevrilmişdi. Ağ Evin keçmiş siyasi rəhbərliyinin xüsusi simpatiyası nəzərə alınmaqla ABŞ-ın bütün idarəetmə strukturlarında Ermənistanın istəklərinə "yaşıl işıq" yandırılırdı. Cənubi Qafqazdakı reallıqlar fonunda rəsmi İrəvana açıq-aşkar selektiv yanaşma sərgilənirdi. Erməni lobbisinə bağlı olan parlamentarilərin canfəşanlığı sayəsində Senatda Ermənistanın əsassız müdafiəsini hədəfləyən bir neçə qərəzli qətnamə qəbul olundu. C.Bayden administrasiyası Ermənistanın müxtəlif istiqamətlərdə dəstəklənməsi məqsədilə böyük məmnuniyyətlə maliyyə vəsaitləri ayırırdı.

Erməni lobbisinin güclü aktivliyinin nəticəsi olaraq Bayden administrasiyası Ermənistana son yaxşılığını (və həm də pisliyini - red.) hakimiyyətdən getməsinə saylı günlər qalmış etdi. Söhbət yanvarın 14-də Ermənistanla ABŞ arasında strateji tərəfdaşlıq haqqında xartiyanın imzalanmasından gedir. Xartiyanın məzmunundan o qənaət hasil olur ki, ABŞ Ermənistanın suverenliyinin təminatçısı missiyasını öz üzərinə götürür. ABŞ tərəfdən sənədi imzalayan sabiq Dövlət katibi Antoni Blinken xartiyanın imzalanmasını iki ölkə arasında münasibətlərdə "mühüm mərhələ" kimi səciyyələndirərək vurğulayıb. "Biz ABŞ-Ermənistan Strateji Tərəfdaşlıq Komissiyası yaradırıq. Bu, bizə müxtəlif sahələrdə əməkdaşlığı genişləndirmək imkanı verir. Buraya iqtisadi, təhlükəsizlik və müdafiə məsələləri, demokratiya, insan haqları kimi məsələlər daxildir".

Eyni zamanda, sənədin imzalanması mərasimində A.Blinken bildirmişdi ki, sərhəd təhlükəsizliyi məsələləri ilə bağlı işləmək üçün yaxın həftələrdə Amerika ekspertlərinin Ermənistana gələcəyi gözlənilir. Aradan xeyli vaxt ötüb. Ancaq amerikalı ekspertlərin Ermənistana gəlişi ilə bağlı Ağ Evdə, Pentaqonda hansısa müzakirələr aparılmır. Günlər, həftələr ötdükcə Paşinyan komandasının təmsilçilərinin ümidləri də azalır. Rəsmi İrəvanın gözünü yollardan çəkməməsi öz yerində, Tramp administrasiyasının Ermənistana münasibətdə ögeyliyi cəmiyyətdə də dərin inamsızlıq yaradıb. Məsələn, İrəvan Geosiyasi Klubunun sədri, politoloq Arman Boşyan "ABŞ-ın sərhəd və gömrük nəzarəti üzrə mütəxəssislərdən ibarət "missiyasının" niyə hələ də İrəvana gəlmədiyi" barədə sualı şərh edərkən deyib ki, bu, prezident Trampın komandasının yanaşmaları ilə bağlıdır. Boşyanın sözlərinə görə, dünyada baş verən tektonik dəyişikliklər kontekstində Ermənistanla bağlı məsələlər və layihələr Rusiya ilə razılaşdırıldıqdan sonra həyata keçiriləcək. Boşyan hesab edir ki, Vaşinqtondakı yeni komanda Moskvaya baxmadan İrəvanla heç bir razılaşmanı həyata keçirməyəcək. "Yeni administrasiya ABŞ-ın xarici siyasətinə yeni ideologiya gətirib. Bu, texnokratların ideologiyasıdır. Yeri gəlmişkən, Trampla Zelenski arasında Vaşinqtonda baş tutan görüşdə yaşananlar əvvəlki sistemin dağıdılmasını və əvvəlki oyun qaydalarının ləğvini göstərir", - deyə Boşyan vurğulayıb.

Rəsmi İrəvanın digər bir narahatçılığı ABŞ-da USAID ətrafında baş verənlər sarıdandır. Bəli, C.Bayden administrasiyasının Ermənistana xüsusi simpatiyasını həmçinin USAID-in bu ölkəyə ayırdığı vəsaitlərin həcmini getdikcə artırması bir daha təsdiqləyirdi. 2024-cü ilin sentyabr ayında qurum Ermənistana beşillik yardım paketini 120 milyon dollardan 250 milyon dollara qədər artırdığını elan edib. Bu yardımların əsas məqsədinin guya Ermənistanda demokratiya və iqtisadiyyatın inkişafına dəstək vermək olduğu, maliyyə vəsaitinin təbii fəlakətlərdən qorunma, kibertəhlükəsizlik, ərzaq və enerji təhlükəsizliyi kimi sahələrə yönəldiləcəyi bildirilirdi. USAID-in Ermənistana ayırdığı maliyyə yardımı ABŞ-ın "Xarici Hərbi Maliyyələşdirmə" proqramı ilə əlaqələndirilirdi. Bundan əlavə, USAID Ermənistanda davam edən insan haqları problemlərinin həlli üçün 2,5 milyon dollar ayıracağının vədini vermişdi. Vəsait guya LGBT fərdlərinin hüquqlarının müdafiəsinə, gender əsaslı zorakılıqla mübarizə və digər tədbirlərə xərclənəcəkdi. Tramp administrasiyasının məlum gedişlərindən sonra Paşinyan komandasının USAID ilə bağlı ümidləri də sulara qərq olub. USAID-in hansı çirkin fəaliyyətlərlə məşğul olduğu artıq bütün dünyaya məlumdur. Bu çirkin fəaliyyətdən Ermənistanın da adı keçir ki, bu da başqa bir söhbətin mövzusudur.



## Paşinyan komandasının "U" dönüşü

Ermənistanın həm dövlət, həm də cəmiyyət olaraq daim fürsətcillik etdiyi hər kəsə bəllidir. Heç vaxt müstəqil siyasət aparmayan bu ölkə bir qayda olaraq başqalarının çətiri altında daldalandıqda özünü xoşbəxt sanır. Ağ Evdə administrasiya dəyişikliyindən sonra N.Paşinyan tələm-tələsik Vaşinqtona səfərə getdi. Məqsəd yenə də ermənisayağı idi - yazıqlanaraq yeni administrasiyanın, Trampa yaxın fiqurların qılığına girib onların da saqqızını oğurlamaq. Əvvəlcədən hökumət rəhbərinin Vaşinqton səfəri barədə böyük ajiotaj yaradılmışdı, cəmiyyət Tramp administrasiyasının da Ermənistan rəhbərliyinə rəğbətlə yanaşacağına ümidləndirilmişdi. Səfərin nəticəsizliyi isə bütün ümidlərin əbəs olduğunu ortaya qoydu. Erməni lobbisinin səylərinə baxmayaraq, Paşinyana Vaşinqtonda bir önəmli görüşə qatılmaq müyəssər olmadı, onu hər yerdə qapı arxasında saxladılar.

Baş verənlər fonunda rəsmi İrəvanın siyasi kursunda "U" dönüşü etməyə hazırlaşdığı barədə xəbərlər gəlməkdədir. Artıq Ermənistanın Avropa İttifaqına üzvlük məsələsində tərəddüdlər etdiyi bildirilir.. "Hraparak" nəşri yazır ki, Ermənistan parlamenti Avropa İttifaqına daxil olmaq prosesinin başlanması haqqında qanun layihəsinin ikinci oxunuşda qəbulunu 2 ay müddətinə uzadıb. Hətta layihənin ümumiyyətlə təxirə salındığı haqda da məlumatlar var. "Artıq bir neçə gündür Xarici İşlər Nazirliyinə rusiyalı həmkarları ilə paralel əlaqələri və əməkdaşlığı bərpa etmək tapşırılıb. Təbii ki, bir müddət rusofobik hissləri şifahi səviyyədə saxlayacaqlar, lakin reallıqda fərqli hərəkət edəcəklər. Parlamentin spikeri Alen Simonyanın MDB Parlamentlərarası Assambleyasının II Dünya müharibəsində qələbənin 80-ci ildönümünə həsr olunmuş iclasında iştirakı da təsdiqlənib", - deyə nəşr rəsmi İrəvanın "U" dönüşü istiqamətində konkret addımlar atdığına diqqət çəkib.

*Mübariz ABDULLAYEV*

# Makronun son akkordları...

## Fransa prezidentinin xalqına müraciəti sonuncu vasitədir

Ukrayna üzərindən planlar quran və bununla da həm özünün şəxsi, həm də dövlət olaraq Fransanın nüfuzunu xilas etməyə çalışan Makron dilemma qarşısındadır. Son proseslər, xüsusilə, ABŞ-ın regionla bağlı qərarları Aİ daxilində mühüm çatlar yaradıb. Bu isə istər-istəməz ölkədaxili proseslərə də təsir göstərir. Təsadüfi deyil ki, bu ilin əvvəlində "Le Figaro" Makronun siyasi imici ilə bağlı sorğu keçirmişdi. Sorğuda iştirak edən fransızların 60 faizdən çoxu prezident Makronun istefasını dəstəkləyib. Nəşrin qeyd etdiyi kimi, bu rəqəm 2024-cü ilin sentyabrından bəri 7 faiz artıb.

## Paris Vaşinqtonla yollarını ayırdığını rəsmən bəyan edir

### Rusiyanı hədəfə alır...

Makron isə ötənilki parlament seçiklərindən sonra növbəti zərbəni almamaq üçün özünü xilas etməyə fokuslanıb. Ukrayna müharibəsi ilə bağlı rabitəsiz və ardıcıl olmayan fikirlərin səsləndirilməsi, tez-tez qərarların dəyişdirilməsi Fransa prezidentinin siyasi karyerasından narahat olduğunu göstərir. Yeri gəlmişkən, martın 5-də Emmanuel Makron televiziya vasitəsilə həmvətənlərinə müraciət edib. Makron, xüsusən də Rusiyanın sülhə təhdidindən və Avropanın Ukraynaya dəstəyindən danışıb, Trampın bu məsələdə mövqeyini pisləyən Makron Fransa ordusunu "Avropanın ən döyüşə hazır ordusu" adlandırıb. O, Fransanın nüvə çətirinin avropalı tərəfdaşlar üçün də genişləndirilməsi ilə bağlı müzakirələrin aparılacağını da açıqlayıb. Makronun sözlərinə görə, Rusiya-Ukrayna münaqişəsi çoxdan "qlobal xarakter alıb".

"Mən sizinlə danışarkən, Rusiya artıq uzun illərdir ki, Fransa və bütün Avropa üçün təhlükəyə çevrilib", - deyə Makron deyib.

Bir çox bəlalarda Rusiyanı günahlandıran Makronun sözlərinə görə, Moskva rəqiblərini məğlub etmək üçün sərhədləri pozur, Ruminiya və Moldovada seçkilərə təsir edir, xəstəxanalara rəqəmsal hücumlar təşkil edir və sosial mediada yayılan yalanlarla fikirləri manipulyasiya etməyə çalışır.



### Yeni nüvə ritorikası...

Makronun çıxışından bəlli olub ki, Fransa prezidenti münaqişə ilə bağlı birmənalı fikrə sahib deyil - o, açıq şəkildə Avropada yeni nüvə ritorikası başladıb. "Gələcək Almaniya kanslerinin tarixi çağırışına cavab olaraq, Fransanın çəkindirici qüvvələrinin köməyi ilə Avropadakı müttəfiqlərimizin müdafiəsi ilə bağlı strateji müzakirələr açmağa qərar verdim", - deyə bildirib. O xatırladıb ki, Fransanın nüvə silahı 1964-cü ildən Avropada sülh və təhlükəsizliyi qoruyub saxlayır. Bundan əlavə, Makronun sözlərinə görə, Fransa Avropanın ən döyüşə hazır və effektiv ordusuna malik ölkə kimi xüsusi statusunu tanıtmalıdır. "Bizə islahatlar lazımdır, qərarlar qəbul etmək və cəsarətli olmaq lazımdır", - deyə Makron bildirib.

### Yelisey sarayı Ağ Evə qarşı...

Makron ABŞ-dan incikliyini açıq kontekstdə ifadə edib. O, Tramp administrasiyası dövründə ABŞ-ın xarici siyasətindəki dəyişikliklərdən danışarkən xüsusi narahatlığını büruzə verib və Trampın siyasətini, onun sülh təşəbbüslərini pisləyib. "Müttəfiqimiz olan Birləşmiş Ştatlar bu müharibə ilə bağlı mövqeyini dəyişib, Ukraynanı daha az dəstəkləyir və bundan sonra nə olacağına dair şübhələr yaradır. Təhlükəsizliyimiz və rifahımız qeyri-müəyyənləşib və bunu demək lazımdır: Biz yeni dövrə qədəm qoyuruq", - deyə Makron bildirib.

Fransa liderinin sözlərinə görə, Ukraynadakı çox kövrək atəşkəs Avropa üçün təhlükəlidir. "Sülhə gedən yol Ukraynanı tərk etməkdən keçə bilməz. O, nəyin bahasına olursa olsun, Rusiyanın diktəsi ilə formalaşdırıla bilməz və Ukraynanın kapitulyasiyası ola bilməz".

Fransa prezidenti deyib ki, ölkəsi gələn həftə Ukraynada sülhün təminatına hazır olan ölkələrin ordularının qərargah rəislərini Parisdə toplayacaq. Makronun sözlərinə görə, uğura ancaq Avropa hərbi qüvvələrinin həmin zonaya yerləşdirilməsi ilə nail olmaq olar - Makron hərbi toqquşmalarda iştirakın olmayacağını bildirib. "Onlar bu gün müharibəyə getməyəcəklər, cəbhə xəttində döyüşməyə getməyəcəklər, əksinə, sülhün imzalanmasından sonra ona tam əməl olunmasına zəmanət vermək üçün orada olacaqlar", - deyə Fransa dövlətinin başçısı bildirib.

### Makron iqtisadi böhranı etiraf edir

Fransa prezidenti dolayısı ilə də olsa, iqtisadi geriləməyə də toxunub. Makron son dövrlərdə Fransada iqtisadi böhranın olmasını fərqli bir dildə təsdiqləyb. Belə ki, o, ABŞ-ın iqtisadi platflormada yardım etməməsi faktını önə sürərək müdafiə üçün əlavə sərmayəyə ehtiyac duyulduğunu deyib. Bunun üçün isə fransızların vergilərinin artırılmasını "yolverilməz" sayıb. "Bunlar özəl və dövlət maliyyəsi tələb edən yeni investisiyalar olacaq. Bunun üçün islahatlar, qətiyyət, cəsarət tələb olunacaq".

### Makron yolun sonundadır - fransız əhalisi "yox deyir"...

Makronun bu fikirləri Qərb ekspertləri tərəfindən ciddi qarşılanmır. ABŞ-ın olmadığı bir səhnədə Aİ-nin də döyüşkən mövqe tutmayacağına əminliklərini ifadə edən ekspertlərin fikrincə, Fransa prezidenti ikili oyun oynayır - ya, yeni mərhələdə heç olmasa Ukraynanın təhlükəsizliyinin "qarantı" statusunu qazanmaq, ya da ABŞ-ın əldə etdiyi minerallardan kiçik də olsa "pay almaq" ümidi ilə prosesi davam etdirir. Çünki Makron anlayır ki, nə Aİ ölkələri, nə də Fransa xalqı Ukrayna müharibəsində bu və ya digər şəkildə canlı qüvvə olaraq iştirak etmək istəmir. Keçirilən sorğular da bu faktı təsdiqləyir. CSA şirkətinin Europe 1 radiostansiyası üçün keçirdiyi sorğunun nəticələrinə görə, fransızların əksəriyyəti öz ölkələrinin qoşunlarının Ukraynaya göndərilməsinin əleyhinədir. "Fransızların 65 faizi hesab edir ki, hərbi qoşunlar Ukraynaya göndərilməməlidir, 35 faizi isə bu təşəbbüsün tərəfdarıdır", - nəşr yazır.

Radiostansiya qeyd edir ki, ötən illə müqayisədə Fransa qoşunlarının Ukraynaya göndərilməsinə qarşı çıxanların sayında dəyişiklik olmayıb. Belə ki, 2024-cü ilin fevralında ölkə vətəndaşlarının 76 faizi əsgər göndərilməsinə qəti şəkildə "yox" demişdi. Bu il də analoji sorğu 18-24 yaşlı vətəndaşlar, yəni potensial olaraq xaricdə hərbi missiya üçün səfərbər oluna biləcək vətəndaşlar arasında aparılıb.

Beləliklə, Makron artıq vəzifədən gedəcəyini, daha doğrusu, baş verənlərin hüquqi məsuliyyətini daşıdığını anlayır. Bunun üçün də sonuncu həmləyə - nüvə təhdidinə əl atır. Amma onun bu oyununa təzə müttəfiqləri də razılaşmayacaq...

*SADİQ*

# 46 il sonra...

## Karterin sərəncamı qüvvədən düşəcəkmi?

**Atlantik ilə Sakit okeanı birləşdirən Panama kanalı beynəlxalq gündəmin önəmli mövzularından birinə çevrilib. Qlobal dünyada baş verən son proseslər fonunda ticarət marşrutlarından biri olan bu kanal üzərində beynəlxalq güc mərkəzləri arasında geosiyasi rəqabətin şiddətlənməsi istisna olunmur. Trampın Ağ Evə qayıtdıqdan sonra Qrenlandiya və Panama kanalı ilə bağlı bəyanatları Avropa və Orta Amerika regionunda ciddi narahatlıq yaradıb. Trampın martın 4-də Konqresdə son çıxışı isə Panama dövlətinin ciddi reaksiyasına səbəb olub. Belə ki, Panama Prezidenti Xose Raul Mulino Trampın Panama kanalı ətrafındakı vəziyyətlə bağlı fikirlərini təkzib edib. Dövlət başçısı öz sosial şəbəkə hesabında vurğulayıb ki, ABŞ ilə Panama arasında bu məsələ barədə müzakirə aparılmayıb. "Prezident Tramp yenə yalan danışır. Panama kanalına nəzarəti bərpa etməkdən söhbət getmir və bu, ABŞ Dövlət katibi Marko Rubio və ya bir başqası ilə hansısa danışıqlarda müzakirə olunmayıb", - deyə o, bildirib. Mulino, kanalın ABŞ-a verilməyəcəyini bəyan edib: "İki ölkə arasında əməkdaşlıq qarşılıqlı maraq doğuran məsələlər üzrə razılaşmalar əsasında inkişaf edir və bunun nə kanalın ABŞ-a qaytarılması, nə də Panamanın milli suverenliyinə zərbə vurmaqla heç bir əlaqəsi yoxdur. Kanal Panamaya məxsusdur və Panamanın bir hissəsi olaraq qalacaq".**

### Kanalın əhəmiyyəti

Süveyş kanalı, Cəbəllüttariq, Babül-Məndəb və Hörmüz boğazları kimi Panama kanalı da geostrateji, geosiyasi və geoiqtisadi cəhətdən xüsusi əhəmiyyət kəsb edir. 1914-cü ildə ABŞ-ın maliyyə dəstəyi ilə əsası qoyulan, hazırkı dövrdə qlobal daşınmaların 6 faizini təşkil edən Panama kanalı son yüz ildən çoxdur ki, iki okean arasında yeganə beynəlxalq ticarət marşrutudur - ABŞ ticarət gəmiləri məhz bu kanal vasitəsilə Asiya-Sakit okean ölkələrinə mal və məhsul daşıyırlar. "Sobel" analitik mərkəzinin məlumatına görə, 2021-ci ildə kanaldan tranzit kimi istifadə edən gəmilərin 73 faizdən çoxu ABŞ-a məxsusdur. Analitik mərkəz Panama kanalının digər beynəlxalq güc mərkəzləri, xüsusilə Çin üçün də önəm daşıdığını qeyd edib - mərkəzin məlumatında bildirilir ki, 2017-ci ildə Panama ilə Pekin arasında diplomatik-siyasi münasibətlərdə yeni mərhələ başladıqdan sonra Çinin bir çox logistik şirkətləri kanalın iri və kiçik limanlarında öz filiallarını açıb və limanların müasir infrastruktur ilə təmin olunmasına milyardlarla dollar dəyərində investisiya yatırıb. BBC-nin son araşdırmalarına görə, 2023-cü ilin oktyabrından 2024-cü ilin sentyabrına qədər Panama kanalından keçən yüklərin 21,4 faizi Çinin payına düşüb, yəni Çin ABŞ-dan sonra ikinci yerdə qərarlaşıb. Eyni zamanda, Çin Karib və Qərbi Afrika ölkələrinə, o cümlədən Kolumbiya və Braziliyaya logistik daşınmaları məhz bu kanal üzərindən həyata keçirir.

Hər il kanal vasitəsilə həm ABŞ, həm Çin, həm digər ölkələr tərəfindən həyata keçirilən daşınmalar Panamanın özünə də mənfəət qazandırır. Latın Amerikası üzrə İDB İnvestisiya Fondunun 2024-cü il üzrə araşdırmalarında qeyd olunur ki, Panama illik gəlirinin 23,6 faizi kanalda həyata keçirilən logistik daşınmalardan əldə edir. Xatırladaq ki, 1979-cu ildə ABŞ Prezidenti Cimmi Karterin sərəncamı ilə Panama kanalı birbaşa Panama hökumətinin nəzarətinə verilib.



### Trampın narahatlığı nədəndir?

Bir çox ekspertlər hesab edirlər ki, Trampın narahatlığının başlıca səbəbi Çinin və bəzi güc mərkəzlərinin Panama kanalından öz maraqları üçün sui-istifadə etməsi, bu kanal üzərindən Orta və Cənubi Amerika, habelə Karib regionunda geosiyasi və geoiqtisadi təsir imkanlarını artırması ilə bağlıdır. Onların fikrincə, Tramp bunun qarşısını almaqdan ötrü bu istiqamətdə daha ciddi və sərt addımlar atmaq niyyətindədir - o, düşünür ki, ABŞ-a yaxın olan regionlarda yalnız Vaşinqton güc mərkəzi olmalıdır. Tramp administrasiyasının Panama hökumətinə təzyiqlərinin məhz bundan irəli gəldiyini deyən ekspertlər vurğulayırlar ki, Ağ Evin rəhbəri Panamaya mesajını respublikaçı senatorlar və Dövlət katibi Marko Rubionun dili ilə çatdırıb. Bu il yanvarın sonunda Konqresdə aparılan müzakirələr zamanı respublikaçı senator Ted Kruz Panamanın ABŞ-a münasibətinin ədalətli olmadığını bəyan edib: "Panama kanalını ABŞ maliyyələşdirib və inşa edib. ABŞ-ın ticarət gəmiləri kanalın istifadəsinə görə yüksək gömrük haqları ödəməməlidir. Bu ABŞ-a qarşı ədalətsizlikdir". Respublikaçı senatorlar öz çıxışlarında Panama kanalının ABŞ üçün yalnız iqtisadi baxımdan deyil, həmçinin milli təhlükəsizlik baxımından da əhəmiyyət daşıdığını bildiriblər.

Rubio da kanalın ABŞ üçün prioritet olduğunu bəyan edib: "Birləşmiş Ştatlar Panama kanalına hücum ediləcəyi təqdirdə onu müdafiə etmək üçün müqaviləyə əsasən öhdəliklər var. Bu müqaviləni ABŞ ordusu, xüsusən də Hərbi Dəniz Qüvvələri həyata keçirir. Münaqişə zamanı müdafiə etməyə borclu olduğumuz ərazidən keçmək üçün pul ödəməli olmağımızı absurd hesab edirəm".

### Panama güzəştə gedəcək?

Dövlət Departamentinin məlumatına görə, fevralın 2-də Rubio Panamaya səfər zamanı Prezident Raul Mulinonun diqqətinə çatdırıb ki, Tramp Çinin regionda artan təsirindən narahatdır və Panama kanalı ilə bağlı status-kvonu saxlamaq istəmir və əgər dəyişikliklər baş verməyəcəyi təqdirdə ABŞ öz hüquqlarını qorumaq üçün tədbirlər görməyə məcbur qalacaq. Rubio-Mulino görüşünün detalları barədə məlumat verən Qərb KİV-ləri qeyd edirlər ki, bu görüşdən sonra Panama Çinin "Bir kəmər, bir yol" təşəbbüsünə yönələn, Pekin ilə imzaladığı anlaşma memorandumunun vaxtını uzatmamaq, bununla yanaşı, Pekinin bir neçə layihəsinə xitam vermək qərarına gəlib.

***Yunis ABDULLAYEV***

# Bir nəslin xəstəlik tarixçəsi

## Emil Zolyanın "Ruqon-Makkarlar" silsiləsindən son romanı "Doktor Paskal" haqqında

əvvəli ötən sayımızda

Silsilənin bütöv adı belədir: "Ruqon-Makkarlar - İkinci imperiya dövründə bir ailənin təbii və sosial tarixi". Aydındır ki, qollu-budaqlı nəslin qəziyyəsi İkinci imperiyanın hökm sürdüyü qısa vaxt aralığına (1852-1870) sığa bilməz, bu dastanın əvvəli ondan yüz il qabağa gedib çıxır. Üstəlik, yazıçının başlıca məqsədi konkret tarixi dönəmin sosial-epoxal mənzərəsini, bədii salnaməsini yaratmaqdan çox həmin çəliz, mürəkkəb dövrün gerçəkliyi kontekstində ədəbi-fəlsəfi eksperiment aparmaq, eyni anadan törəmiş xarakterləri bəlli zaman-məkan koordinatlarına ezam eləməklə öz nəzəri mülahizələrini təcrübədə sınaqdan keçirməkdir.

Nəslin böyük anası, ulu nənəsi Adelaida Fuk 1768-ci ildə anadan olub. Bütün silsilə boyu bu qadın sağdır, yaşlandıqca nevrotik tutmalar keçirdiyinə görə şüurunu itirsə də, zamanla əlaqəsi çoxdan qırılmış nənə yalnız silsilənin sonuncu - iyirminci romanında, dastandakı hadisələrin başa çatdığı 1873-cü ildə, 106 yaşının içində olanda canını tapşırır. Buna qədər onun nəçə nəvə-nəticəsinin adı fələyin dəftərindən silinmişdi. Yeri gəlmişkən, bu qarını biz Markesin dünya şöhrətli Ursula nənəsinin əcdadı da saya bilərik.

Ağıldankəm, xəstəhal Adelaidanın gəncliyində Ruqon soyadlı işlək, hiyləgər muzdur kəndliyə ərə gedir. Oğlan imkanlı kişinin qızıyla onu sevdiyinə görə yox, kasıblığın daşını atmaq, fani dünyada beş gün ehtiyacsız yaşamaq naminə evlənir. Oğlu Pyer dünyaya gələndən sonra Adelaidanın ağlı bir az da seyrəlir. Ancaq onların birgə yaşayışı uzun sürmür, kəndli Ruqon cavan yaşında ölür. Bundan sonra qadın Makkar soyadlı brakonyer, qaçaqmalçı avara-əyyaşla əlaqəyə girir, ondan da nikahdankənar iki uşağı - bir oğlu, bir qızı dünyaya gəlir. Bütün Ruqon-Makkar nəsli bu üç uşaqdan törəmədir.

Bəzi mütəxəssislər yazıçının Adelaidanı iki ərə verməyinin nəsli daha yaxşı şaxələndirib çoxlu qola-budağa ayırmaq məqsədi güddüyünü, geniş planlı epopeyanın ərazisinə yeni-yeni sakinlər cəlb eləmək üçün bu üsula əl atdığını deyirlər. Zənnimcə, bu, ağlabatan arqument deyil, Adelaida Fuk üç uşağı elə bir kişidən də doğa bilərdi, bundan ötrü onu iki dəfə ərə verməyə ehtiyac yoxuydu, çoxuşaqlı ailə o dövr üçün adi hal sayılırdı. Bəs onda səbəb nədir?

Məsələ burasındadır ki, genetik eksperiment aparan müəllif öz mitoxondrial Həvvasına iki cür gen köçürür: bunlardan biri (Ruqon) özündə aktiv həyat enerjisi, təkamülə uyğunlaşmaq qabiliyyəti, o biri (Makkar) ölüm enerjisi, dağıdıcı, yırtıcı meyillər daşıyır; başqa sözlə, bir xətt Erosun, o biri xətt Tanatosun dərgahından gəlir. Yarı həyatsevər, xeyirxah, sağlam, yarı da dəbil, xəstə olan Adelaida bu iki xəttin kəsişməsində qərar tutub. Ruqonla Makkar həyatın iki başlanğıcını simvolizə eləyir. Əslində, onları iki ayrı başlanğıc da saymaq olmaz, onlar fiziki-bioloji aləmi vücuda gətirən eyni bir başlanğıcın iki başı, iki qütbü, iki üzüdür. Ruqon nəsli bu dünyanın daha çox pozitiv üzünü, Makkar nəsli neqativ üzünü əks elətdirir. Hər iki kökdən törəmiş nümayəndələrin sonrakı taleyi də bunu göstərir.

***

Romanlar, daha doğrusu, onların qəhrəmanları qohumluq əlaqələriylə bir-birinə bağlı olsa da, silsilədə yer almış hər bir roman müstəqil əsərdir, hər biri ayrıca oxuna bilər. Bununla belə bəzi romanların bir-birinə xronoloji bağlılığı, bəlli bir ardıcıllığı da var ki, həmin ardıcıllığa riayət eləmək ümumi mənzərəni daha aydın görməyə imkan verir. Məsələn, silsilənin ən güclü halqalarından olan "Tələ" romanının baş qəhrəmanı Jerveza Kupo Adelaida Fukun nəvəsi, Antuan Makkarın qızıdır. Onun iki kişidən dörd övladı - bir qızı, üç oğlu var. Onların da hərəsi bir kitabın mərkəzində duran surətdir: Klod Lantye - "Yaradıcılıq", Jak Lantye - "İnsan vəhşidir", Etyen Lantye - "Jerminal", Anna Kupo - "Nana" romanının əsas qəhrəmanıdır. Bu üsuldan əvvəllər Balzak yararlanmışdı, daha doğrusu, bu üslubu kəşf eləmişdi, ancaq onun yaratdığı şəbəkənin üzvləri eyni bir ailənin qolbudağı, çiyinlərinə qoyulmuş ağır genetik yük altında inləyən övladları deyildi.

Makkar soyundan gələn bu personajların hər birinin aqibəti faciəli olur: ən böyük arzusu bir tikə çörək qazanıb övladlarını adam balası kimi böyütmək, ömrünü sakit, arxayın keçirib vaxtı çatanda öz evində, rahat yatağında, doğmalarının gözü qarşısında can vermək olan cəfakeş, zavallı Jerveza qırx yaşında pilləkən altında yiyəsiz it kimi gəbərir; otuz dörd yaşlı rəssam Klod bədbinliyə qapılıb özünə əl qaldırır (Zolya burada həm də incəsənətin psixi saptıntıların, mənəvi eybəcərliyin məhsulu olduğuna - dövrü üçün populyar nəzəriyyəyə illüstrasiya yaradır); gənc dəmiryolçu Jak canında-qanında baş qaldıran manyakal bir istəyin, qatil genin təhrikiylə səbəbsiz yerə adam öldürür; terrorçu rus anarxistinə qoşulmuş fəhlə Etyen kömür şaxtasının cəhənnəm dərinliyində əlini qısqanc rəqibinin qanına batırır; zəngin tacirlərin, yüksək çinli məmurların ağlını başından, ixtiyarını əlindən, pulunu cibindən alan artist, müğənni Nana gəncliyinin çiçəklənən çağında çiçək xəstəliyinə yoluxub diri-diri çürüyür.

Göründüyü kimi, Makkarların hər birinin canında ölüm instinkti at oynadır, çox dərinə işləmiş bu şüursuz mübtəlalıq onları xoşbəxt olmağa, həyatdan doyunca zövq almağa qoymur. Az keçmiş Ziqmund Freyd bu mübhəm, məşum şeytani duyğuları ədəbiyyatın təhrikiylə meydana yeni çıxan psixologiya elminin zirzəmisində amansız sorğu-suala çəkəcək...

***

Ruqon nəslini hərəkətə gətirən həyat instinkti isə bu müddətdə yeni zəfərlər qazanır. Silsilənin ilk əsəri, bir növ proloqu olan "Ruqonların karyerası" romanının mərkəzi personajı Pyer Ruqonun böyük oğlu, "Ələhəzrət Ejen Ruqon" romanının parlaq baş qəhrəmanı əyalət şəhəri Plassandan Parisə gedib III Napoleonun silahdaşlarından birinə çevrilir, onun imperator taxt-tacına yiyələnməsinə kömək göstərir. Bundan sonra Ejenin karyerasında göz qamaşdıran yüksəliş başlanır, o, dövlət şurasında, nazirlər kabinetində yüksək vəzifələr alır. Əlbəttə, çox keçmədən onun da tənəzzülə uğradığı zaman yetişir, çünki hər bir yüksəlişin ardı eniş, uğurlu-uğursuz hər bir həyatın aqibəti ölümdür. Dünyanın atdan salmadığı cahangir hələ dünyaya gəlməyib.

Ruqon soyundan qopan daha bir nəfər - Ejen Ruqonun, doktor Paskalın bacısı oğlu, "Qadın xoşbəxtliyi" romanının qəhrəmanı Oktav Mure yaşayıb-yaratmaq, qazanmaq həvəsiylə dolu uğurlu iş adamı, böyük bir ticarət mərkəzinin sahibi, gözəl xanımların sevimlisidir. Onun qardaşı, "Abbat Murenin günahı" romanının qəhrəmanı keşiş Serj Mure isə ucqar kənddə ruhani xidmətdə olanda dərin ruh düşkünlüyü keçirir, nə din, nə inanc gəncin köməyinə çatır. O da böyük qardaşıyla eyni kökdəndir, içindəki yaşamaq ehtirasını boğmaq, asketik həyat keçirmək, ölümlə izdivac bağlamaq onu xoşbəxt eləyə bilməz. Canında közərən Ruqon genlərinin təhrikiylə abbat gənc bir qıza vurulandan sonra həyatsızlıq sindromundan qurtulur, depressiyadan çıxır. Doğrudur, bu sevginin də sonu xoşbəxtliyə dirənmir - neyləyəsən ki, insanı təkcə aclıq yox, toxluq da bədbəxt eləyir.

***

Həyat-ölüm qarşıdurmasında Zolyanın mövqeyi "Həyatın sevinci" adlı romanda Şopenhauerlə polemika zəminində əksini tapıb. Romanın yazıldığı dövrdə Artur Şopenhauerin zahidanə-pessimist təlimi Avropada pozitivizm fəlsəfəsindən heç də az populyar deyildi. Bütün sevincləri, kədərləriylə həyatı, yaradılışı tərənnüm eləyən, təbiətin qüdrətinə səcdə qılan Zolya üçün "Qərbin Buddası" göydəndüşmə opponent idi. Elə buna görədir ki, onunla polemikaya bütöv bir roman həsr eləyib.

Romanın qəhrəmanı Lazar Şanto şöhrət, ad-san, pul qazanmaq yolunda uğursuzluğa düçar olandan sonra Şopenhauer fəlsəfəsinin təsiriylə həyata, insanlara nifrət bəsləməyə başlayıb. O düşünür ki, günün birində bəşəriyyət mübhəm fövqəlbəşər gücün onunla necə məzələndiyini anlayanda doğub-törəməkdən, adına fələk deyilən zalım hökmdara əsgər yetişdirməkdən imtina eləyib intihar yolu seçəcək, yəni yer üzündə qiyamət qopacaq. Lazar ölümü vəsf eləyir, çünki həyat adlı bu tələdən qurtulmaq üçün ölümdən savayı nicat yoxdur.

Həyat bizə həmin o mübhəm qüvvənin xudbin səxavətindən, harın ehtirasından dilənçi payıtək ayrılıb, hələ üstündə xoşbəxtlik illüziyası da verilib. Sona yaxınlaşdıqca verilənlər qəpik-qəpik geri alınır, məlum olur ki, bizim heç nəyimiz yoxmuş. Odur ki, dünyadan kredit götürməmək, fələyin payını bəri başdan üzüsulu qaytarıb başına çırpmaq lazımdır.

Lazarın fikrincə, həyat səfeh, mənasız bir oyundur, insan da bu oyunun passiv iştirakçısı, başıqapazlı kuklası. Sabaha inam bəsləməyin anlamı yoxdur, çünki sabahın özü də yoxdur, onun yalnız barsız-bəhərsiz ümidi, bir də qorxusu-həyəcanı var. Gələcək qarşısında qorxunu aradan qaldırmaq üçün insanda həyat eşqini öldürmək lazımdır. Yaşamaq ehtirasını məhv elə ki, qorxunu da öldürmüş olasan. Bu mübarizədə insanın ən güclü silahı ölümdür, yalnız ölüm bəşəriyyətin yaralarını sağalda bilər.

Lazar Şantonun ustadı Şopenhauerdən də o yana keçən pessimist dünyagörüşünü təxminən bu şəkildə ümumiləşdirmək olar...

Fəqət bu romanda heç bir həyat sevincindən söhbət getmir, tam tərsinə, roman fiziki-mənəvi insan əzablarıyla yüklənib. Bəs onda müəllif nədən əsərinə belə bir ad qoyub - bunu onun ironiyasımı saymalıyıq? Dəmək çətindir. Bircə məsələ şübhə doğurmur ki, yazıçının mövqeyi yaratdığı qəhrəmanın baxışlarına daban-dabana ziddir. Ola bilsin, bu romana öz antipodunu qəhrəman seçməklə Zolya bu dəfə özünün həyat fəlsəfəsini tərs üzündən nümayiş etdirmək istəyib.

Bu baxımdan "Doktor Paskal" romanını "Həyatın sevinci" romanıyla polemika, müəllifin özüylə dialoqu da saya bilərik.

***

İyirmi roman arasından "Doktor Paskal"ın üstündə daha çox durmağımız bu əsərin silsilədə yer almış qalan romanlardan üstün olmasına bağlı deyil. Məsələ burasındadır ki, "Doktor Paskal" bu nəsil dastanının sonuncu cildi, yekunu, sintezidir. Ondan əvvəlki "Tarmar" romanında Fransa-Prussiya müharibəsində ölkəsinin məğlubiyyətindən, Paris kommunasının məhvindən danışan müəllif nəhəng epopeyasının boyuna biçdiyi zaman çərçivəsinin, yəni İkinci imperiya dövrünün axırına çıxmışdı. O baxımdan süjeti artıq Üçüncü respublika dönəmində cərəyan eləyən sonuncu kitaba silsilənin epiloqu kimi də baxmaq olar: epopeya boyunca rastlaşdığımız, yaxından-uzaqdan tanıdığımız bir sıra obrazların taleyini, aqibətini buradan öyrənirik.

**davamı növbəti sayımızda**



***F.Uğurlu***

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Qasid” MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
“Ziya LTD” MMC - 0124977696, 0503067744

6 aylıq abunə - 79,20 AZN
12 aylıq abunə - 158,40 AZN




## Ramazan ayı: 7-ci günün duası

**Allahummə əinni fihi əla siyamihi və qiyamih. Və cənnibni fihi min həfəvatihi və asamih. Vərzuqni fihi zikrəkə bidəvaih. Bitəvfiqikə ya hadiyəl-muzillin.**

***Tərcüməsi:***

**İlahi, mənə bu gün oruc tutmaqda və gecə oyaq qalıb ibadət etməkdə kömək ol. Bu gün məni səhv ıə nöqsanlardan uzaqlaşdır. Sənin daimi zikrini mənə qismət et. Kömək və yardımına and verirəm, ey yolunu azmışların hidayətçisi!**



# Ağdərəyə ikinci köç!

## Həsənriz sakinlərinin sayı 166 oldu...

İkinci Qarabağ müharibəsində qazandığımız qələbədən sonra keçmiş köçkünlərin tezliklə doğma yurdlarına qayıdacağı ilə bağlı vədlər verən ölkə başçısının sözləri hər keçən gün sürətlə reallığa qovuşur. Demək olar ki, hər həftə Qarabağ torpaqlarına köç karvanı yola salınır.

1993-cü ildə ermənilərin işğal etdiyi, xarabalığa çevirdiyi Ağdərə yenidən qurulur. 32 il torpaq həsrətini çəkən ağdərəli məcburi köçkünlər öz evlərinə, isti ocaqlarına köçürlər.

### İkinci köç...

Dünən Ağdərə rayonunun Həsənriz kəndinə növbəti-ikinci köç karvanı yola salınıb. Doğma yurdlarına köçürülən Həsənriz sakinləri ölkənin müxtəlif yerlərində, əsasən, yataqxanalarda, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdir. Yola salınan köç karvanı 25 ailədən (75 nəfər) ibarətdir.

Xatırladaq ki, bir neçə gün öncə - martın 3-də Ağdərəyə ilk köç karvanı yola salınmışdı. Həmin gün 91 nəfərdən ibarət 25 ailə köçürülmüşdü. Beləliklə, dünənki köç mərhələsi də daxil olmaqla Həsənrizə köçürülən ailələrin sayı 50-yə çatıb.

### 32 il öncə işğal edilmişdi...

1993-cü il iyulun 7-də Ermənistan silahlı qüvvələrinin hərbi birləşmələri Xankəndidən 62 kilometr şimalda yerləşən və ümumi ərazisi 1705 kvadratkilometr olan Ağdərə rayonu və onun kəndlərini işğal etmişdilər. İşğala qədər Ağdərənin 14 kəndində və Gəncxana sovxoz qəsəbəsində 14 mindən çox azərbaycanlı yaşayırdı. İşğal zamanı rayonun bütün əhalisi öz doğma yurdlarından məcburən köçkün düşərək Azərbaycanın müxtəlif bölgələrində məskunlaşmışdılar.

İşğal altında olan dövrdə rayonun kəndləri Ağdam, Kəlbəcər, Tərtər rayonlarının inzibati tərkibində olub. Ağdərənin rayon tipli iki qəsəbəsi, 57 kəndi, 67 klubu, 51 kitabxanası, 30 orta məktəbi, 7 xəstəxanası, 1 texniki peşə məktəbi düşmən əsarətində saxlanılıb.

Əsasən dağlıq, şərq hissəsi isə düzənliklərdən ibarət olan rayon faydalı qazıntılarla - polimetal yatağı, əhəngdaşı və gipslə zəngindir. Ağdərə mühüm kənd təsərrüfatı rayonlarından idi, iqtisadiyyatında üzümçülük, taxılçılıq, tütünçülük və heyvandarlıq əsas yer tuturdu. Tərtər çayı dərəsi boyunca Azərbaycanın yuxarı və aşağı Qarabağını birləşdirən avtomobil yolları var idi.

### Ağdərənin azad olunması



Azərbaycan Ordusunun şanlı qələbələrindən olan 2016-cı ilin Aprel döyüşləri nəticəsində Füzuli və Cəbrayıl rayonları ilə yanaşı, Ağdərə rayonunun da ərazisinin bir hissəsi işğaldan azad edilmişdi. Rəşadətli ordumuzun sarsıdıcı zərbəsi ilə Ağdərə rayonunun Talış və Seysulan kəndləri düşməndən təmizləndi. Bu şanlı qələbə bütün qaçqın və məcburi köçkünlərimiz kimi, ağdərəlilərdə də doğma yurdlarına qayıdacaqları günün uzaqda olmadığına qəti inam yaratmışdı.

Nəhayət, 2023-cü il sentyabrın 20-də Azərbaycan Ordusunun Qarabağda keçirdiyi lokal xarakterli antiterror tədbirləri nəticəsində Ağdərə şəhəri separatçılardan təmizləndi. Prezident İlham Əliyev oktyabrın 15-də Ağdərə şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaltdı. Dövlət başçısı noyabrın 8-də Xankəndi şəhərində Vətən müharibəsində əldə edilən zəfərin üçüncü ildönümünə həsr olunan hərbi paraddakı çıxışında bununla bağlı demişdi: “Oktyabrın 15-də Ağdərədə, Əsgəranda, Xocavənddə, Xocalıda və Xankəndidə mən Azərbaycan Bayrağını qaldırdım. Bundan böyük xoşbəxtlik ola bilməz, həm mənim üçün, həm sizin üçün, həm Azərbaycan xalqı üçün, həm də bütün dünya azərbaycanlıları üçün”.

***Yeganə BAYRAMOVA***

# İqtisadi inkişafımızın tərəqqisi...

## Sahibkarlıq üçün əlverişli mühit yaradılıb

Azad sahibkarlıq və liberal iqtisadiyyatın inkişafı üçün ölkədə əlverişli biznes mühitinin olması vacib amillərdən biridir. Bu siyasətə uyğun olaraq, ölkəmizdə sahibkarlığın stimullaşdırılması məqsədilə biznes və investisiya mühiti davamlı olaraq yaxşılaşdırılır, qanunvericilik bazası təkmilləşdirilir, sahibkar-dövlət, hökumət-biznes münasibətləri daha da inkişaf etdirilir. Sözsüz ki, bu kompeks islahatlar sağlam rəqabət mühiti fonunda azad bazar iqtisadiyyatının inkişafına və ölkənin tərəqqisinə səbəb olur. Eyni zamanda, biznes üçün münbit rəqabət mühitinin bərqərar olması süni qiymət artımları və inhisarçılığın da qarşısını alır ki, bu da sahibkarlıq təbəqəsinin iqtisadiyyatda aparıcı rolunu artırır. Bu baxımdan Azərbaycanda qeyd edilən imkanların hər biri təmin edilib.

Azad sahibkarlığın inkişafında qanunvericilik bazasının təkmilləşdirilməsi də əsas şərtlərdən biridir və bu istiqamətdə də son illərdə ölkəmizin qanunvericilik sahəsində əhəmiyyətli dəyişikliklər aparılıb, ən qabaqcıl dünya meyarlarına uyğunlaşdırılıb. Nəticədə institisional sahədə əlverişli qanunvericiliyin olması və biznesin fəaliyyətində dövlətin dəstək tədbirlərinin artması sahibkarlıq üçün işgüzarlığı və əlverişli şəraiti tam formalaşdırıb.


Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi” istiqaməti üzrə hazırlanmışdır**


### “KOB bazar” fəaliyyətə başlayıb

Ölkəmizdə sağlam sahibkarlıq mühiti şəraitində kiçik və orta biznesin (KOB) fəaliyyət dairəsi də davamlı şəkildə genişlənir. Bu günlərdə Bakının Binəqədi rayonunun ərazisində “KOB bazar” satış yarmarkasının fəaliyyətə başlamasını da bunun nümunələrindən biri hesab etmək olar. İqtisadiyyat Nazirliyinin tabeliyindəki Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) məlumatına görə, KOBİA-nın dəstəyi ilə fəaliyyət göstərəcək bazarda sahibkarların istehsal etdiyi kənd təsərrüfatı və qida məhsullarının satışı həyata keçirilir. Bazarda 50-yə yaxın fermer və istehsalçıya məhsullarını satması üçün şərait yaradılıb.

### “Gəl, istehsalçıdan al”...

Bazar KOB-ların satış imkanlarını genişləndirməklə yanaşı, həmçinin istehlakçıları birbaşa istehsalçılar ilə əlaqələndirəcəkdir. “Gəl, istehsalçıdan al” şüarı ilə təşkil olunmuş yarmarkada Abşeron və ölkənin digər bölgələrində istehsal olunan təzə və keyfiyyətli kənd təsərrüfatı və qida məhsullarının sərfəli qiymətlə satışı həyata keçirilir. “KOB bazar”ı Novruz və Ramazan bayramları günlərində hər gün, digər günlərdə isə həftəsonu fəaliyyət göstərəcək.



### Sahibkarların təklifləri dinlənildi

Sahibkarların üzləşdikləri çətinliklərin araşdırılması və müvafiq tədbirlərin görülməsi də diqqət mərkəzindədir. Bir neçə gün öncə Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin (AQTA) əməkdaşları tərəfindən Lənkəran rayonunda kartof və çiyələk ixracına hazırlıq, ixracın təşkili və qarşıda duran məsələlərin həlli ilə bağlı sahibkarlarla görüş də bunu təsdiqləyir. AQTA-dan verilən məlumata görə, görüşdə ixracın çevik təşkil edilməsi məqsədi ilə tənzimləmə işlərinin koordinasiyası, inzibatçılğın təkmilləşdirilməsi və fermerlərin maarifləndirilməsi istiqamətində Agentlik tərəfindən mütəmadi olaraq görüşlər keçirilir və fermerlərə dəstək göstərilir. Bu sahədə fəaliyyət göstərən sahibkarlıq subyektlərinə ixrac əməliyyatları ilə bağlı ətraflı məlumat verilib. Həmçinin təsərrüfat obyektlərinin AQTA tərəfindən qeydiyyata alınmasının önəmi vurğulanıb və qanunvericiliyin tələbləri bir daha iştirakçıların diqqətinə çatdırılıb. Əlavə olaraq, idxalatçı ölkələrin idxal tələbləri, karantin tətbiq edilən zərərverici orqanizmlər haqqında ətraflı məlumatlar verilib.

Görüş zamanı istehsalçıların məmnunluğunun təmin edilməsi məqsədilə təklifləri dinlənilib, onları maraqlandıran suallar cavablandırılıb. Agentlik tərəfindən bu cür görüşlərin respublikanın qida sahəsində ixrac potensiallı bitkiçilik məhsullarının istehsalı ilə məşğul olan digər regionlarında da keçirilməsi nəzərdə tutulur.

### Qadın sahibkarların rolu artır

Ölkəmizdə azad sahibkarlıqla məşğul olan şəxslər arasında qadınların da rolu davamlı olaraq artır. Qadınların sahibkarlıq mühiti və əmək bazarına çıxışının təmin edilməsi istiqamətdə dövlətin dəstəyi də bu istiqamətdə mühüm rol oynayır. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova bildirib ki, son illər Azərbaycanda qadınların təhsil, sahibkarlıq və əmək bazarına çıxışı daha əlçatan olub. Martın 5-də Bakıda “Konstitusiya və Suverenlik İli” çərçivəsində keçirilən 8 Mart - Beynəlxalq Qadınlar Gününə həsr olunmuş tədbirdə komitə sədri vurğulayıb ki, son 20 ildə qanunverici orqanda qadınların təmsilçiliyi artaraq 11,2 faizdən 20,8 faizə yüksəlib. “Dövlət qulluqçuları arasında 29,7 faizlik iştiraka malik qadınlar, hakimlər korpusunda, hüquq-mühafizə orqanlarında və vəkillər arasında sıralarını daha da genişləndirməkdədir. Onların informasiya texnologiyaları və süni intellektə marağı daha da artmış, rəqəmsal iqtisadiyyatda geniş imkanlar əldə ediblər. Ölkəmizdə qadınların təhsil, sahibkarlıq və əmək bazarına çıxışı son illərdə daha əlçatan olub”.

B.Muradova bildirib ki, qadınlar dünyada sülh, təhlükəsizlik, rifah və inkişaf naminə mübarizəyə töhfələr verir, güclü, inklüziv cəmiyyət quruculuğunda, ictimai həyatda daha fəal iştirak edirlər.

***Yeganə***


## Azercell-in eksklüziv 100 seriyalı nömrələri artıq satışda!




***Mobil operator 100, 101 və 110 seriyalı nömrələri istifadəçilərə təqdim edir***

Azercell 100, 101 və 110 seriyalı nömrələrin satışına start verir. Mart ayının 5-dən etibarən istifadəçilər 010 prefiksli yeni seriyalı nömrələri əldə edə bilərlər.

Yeni nömrələr öz eksklüzivliyi və fərdi yanaşması ilə seçilir. Bu yenilik istifadəçilərə fərqli və yaddaqalan telefon nömrələri seçmək imkanı yaradaraq onların müştəri təcrübəsini daha da individuallaşdırır.

100 seriyalı nömrələri Azercell-in rəsmi onlayn satış portalı www.azercellim.com vasitəsilə əldə etmək mümkündür. Müştərilər mövcud seçimləri araşdıra və istədikləri nömrəni asanlıqla tapa bilərlər. Yaxın zamanda digər prefiks və seriyalı nömrələr də www.azercellim.com portalına əlavə ediləcək.

Yaddaqalan nömrənlə fərqlən, 100-də 100 üstünlüklə!

Daha ətraflı məlumat üçün rəsmi Azercell səhifəsinə daxil olun.


***İdman***

## Bakıda idman gimnastikası üzrə Dünya Kubokunun açılış mərasimi keçirilib




Bakıda idman gimnastikası üzrə Dünya Kubokunun açılış mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, Milli Gimnastika Arenasında təşkil edilən tədbirdə əvvəlcə iştirakçı ölkələr təqdim olunub. Ardınca dövlət bayraqları arenanın mərkəzinə gətirilib.

Gənclər və idman naziri Fərid Qayıbov hər il respublikamızda gimnastika növləri üzrə keçirilən mötəbər yarışlar və qazanılan nailiyyətlər barədə məlumat verib. O, Azərbaycanın gimnastikada daim uğurlu nəticələrlə yadda qaldığını deyib. Nazir bu yarışın Azərbaycanda idman gimnastikasının inkişafında və təbliğində əhəmiyyətli rol oynayacağını, idmançıların təcrübə əldə etmələrinə şərait yaradacağını söyləyib.

Sonra Dünya Kuboku açıq elan olunub və Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbir daha sonra bədii hissə ilə davam edib.

Qeyd edək ki, yarışda ölkəmizi kişilər arasında Nikita Simonov (halqalar), İvan Tixonov (turnik), Rəsul Əhmədzadə (sərbəst hərəkətlər, dəstəli at), Mənsum Səfərov (dayaqlı tullanma, turnik), Murad Ağarzayev (sərbəst hərəkətlər), Ramin Dəmirov (paralel qollar), qadınlar arasında Nazənin Teymurova (6 alətin hər birində) və Dəniz Əliyeva (6 alətin hər birində) təmsil edirlər.

Dörd gün davam edəcək yarışların yekununda, həmçinin ən yüksək icra xalını toplamış gimnastlara ənənəvi “AGF Trophy” kuboku da təqdim olunacaq.

Dünya Kubokuna martın 9-da yekun vurulacaq.


Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4857
Sifariş: 502
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova